QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



*“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir*

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 231 (5703) **6 dekabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## “Tahir Salahovun müasir təsviri incəsənətin inkişafındakı rolu xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilir”

*Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahova 1-ci dərəcəli “Əmək” ordenini təqdim edib*

Səh 2



“Corc Buş Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin yaradılmasında xüsusi rol oynayıb”



3

“Azərbaycan Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verir”



4

Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması ilə bağlı monitorinqin nəticələri açıqlanıb



5

Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı olub



6

YAP-ın Mərkəzi Qərargahında gənclərə “Vəhdət” sənədli filminin təqdimatı olub



9

Ermənistan sosial partlayış ərəfəsindədir



12

14

“Siyasi mühacirlərin” qrant savaşı...



9

XİN: “Lazerev klubu”nda səsləndirilən fikirlər Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirmək məqsədi güdür



16

“Bu il Formula 1 Azərbaycan Qran-Prisini 83 milyon tamaşaçı izləyib”



# “Tahir Salahovun müasir təsviri incəsənətin inkişafındakı rolu xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirilir”

## *Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahova 1-ci dərəcəli “Əmək” ordenini təqdim edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova 1-ci dərəcəli “Əmək” ordenini təqdim edib.***

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Tahir Salahovun 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif olunduğunu, onun hələ əvvəlki dövrlərdə Sosialist Əməyi Qəhrəmanının “Qızıl Ulduzu”na da layiq görüldüyünü vurğuladı. Dövlətimizin başçısı 1-ci dərəcəli “Əmək” ordeninin müxtəlif sahələrdə görkəmli xidmətlərə görə verildiyini bildirdi. Tahir Salahovun müasir təsviri incəsənətin inkişafındakı rolunun bütün ictimaiyyət, xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini deyən Prezident İlham Əliyev 1998-ci ildə ulu öndər Heydər Əliyevin Tahir Salahovu “İstiqlal” ordeni ilə təltif etdiyini vurğuladı. Dövlətimizin başçısı 2008-ci ildə ona Azərbaycanın ən yüksək ordeni olan “Heydər Əliyev” ordenini və 2015-ci ildə isə Heydər Əliyev Mükafatını təqdim etdiyini vurğuladı. Bu gün isə dünya şöhrətli rəssama “Əmək” ordeninin təqdim olunduğunu deyən Prezident İlham Əliyev özünün təşəbbüsü ilə yaradılan və üç dərəcəsi olan bu ordenin nisbətən yeni orden olduğunu və müxtəlif sahələrdə fəaliyyət göstərən görkəmli şəxslərə verildiyini bildirdi, Tahir Salahovun isə birbaşa 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif olunduğunu vurğuladı. “Siz bizim fəxrimizsiniz, Azərbaycan xalqının görkəmli oğlusunuz, siz həmişə öz sənətinizlə Vətənə sədaqətlə xidmət etmisiniz, Azərbaycanı, xalqımızın istedadını, bizim incəsənətimizi təbliğ etmisiniz, bizi bütün dünyada təmsil edirdiniz və edirsiniz”, - deyən Prezident İlham Əliyev Tahir Salahovun ulu öndər Heydər Əliyevlə şəxsi münasibəti və dostluğunun olduğunu bildirərək bu səmimi və çox möhkəm dostluğun hələ Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbərlik etməzdən xeyli əvvəl başladığını vurğuladı. Dövlətimizin başçısı Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verəndən sonrakı ağır illərdə, səhhətində problemlər yarandığı vaxtlar məhz Tahir Salahovun onun yanında olduğunu deyərək onların Moskvadakı söhbətlərini, görüşlərini xatırladı, bütün bunların Heydər Əliyev üçün böyük mənəvi dəstək olduğunu bildirdi. Prezident İlham Əliyev dedi ki, həmin zamanlarda vaxtilə Heydər Əliyevin kömək etdiyi, irəliyə çəkdiyi çoxları kənara çəkilmişdilər, ən yaxşı halda isə susurdular, bəziləri isə onun əksinə çıxış edirdilər. Hər şeyə, dünya şöhrətinə özü nail olan Tahir Salahov isə Ulu Öndərin yanında idi. Dövlətimizin başçısı bunun çox qiymətli olduğunu və heç vaxt unudulmayacağını vurğuladı. Prezident İlham Əliyev illər keçdikdən sonra ona yenidən yüksək mükafatı təqdim etməkdən şad olduğunu bildirdi.



Sonra dövlətimizin başçısı İlham Əliyev 1-ci dərəcəli “Əmək” ordenini Tahir Salahova təqdim edərək təbriklərini çatdırdı.

Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahov yüksək mükafata görə təşəkkürünü bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman öz işini sevən, qeyri-adi, istedadlı bir şəxsiyyət olduğunu deyən Tahir Salahov həyat yolunda onunla dostluq münasibətlərindən böyük xoşbəxtlik duyduğunu vurğuladı. “Bizi incəsənət birləşdirmişdi”, - deyən Tahir Salahov ulu öndər Heydər Əliyevin hər zaman incəsənətə və sənət adamlarına xüsusi qayğı ilə yanaşdığını bildirdi, onun bu sahə ilə bağlı çıxışlarının bütün incəsənət xadimlərində xoş təəssürat yaratdığını vurğulayaraq bildirdi: “Ulu Öndərin həssaslığı, mərdliyi məni heyrətləndirirdi. Belə bir şəxsiyyətlə işləmək, görüşmək mənim üçün böyük xoşbəxtlik idi”. Tahir Salahov Prezident İlham Əliyevin Azərbaycan mədəniyyətinə və incəsənətinə həmişə böyük qayğı və diqqət göstərdiyini vurğuladı və onun sənətinə verdiyi yüksək qiymətə və mükafata görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Finlandiya Prezidenti Sauli Niinistöyə təbrik məktubu ünvanlayıb. Təbrikdə deyilir: “Hörmətli cənab Prezident, Finlandiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm”.

* * *

Prezident İlham Əliyev Ağa-Bala Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev rabitə və yüksək texnologiyalar sahəsi işçilərinə “Əməkdar mühəndis” fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Fərhad Abdullayevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının məhkəmə orqanlarında səmərəli fəaliyyətinə görə Fərhad Sahib oğlu Abdullayev “Şöhrət” ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev Şair Alxasovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

# "Corc Buş Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin yaradılmasında xüsusi rol oynayıb"

*Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyində olub*






Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinə gələrək ABŞ-ın 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki müvəqqəti işlər vəkili Vilyam Gill Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı. Dövlətimizin başçısı Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdı.

Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Vilyam Gill ilə söhbət etdi və ona başsağlığı verdi. Dövlətimizin başçısı mərhum Prezident Corc Buşun Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin yaradılmasında və inkişafında rolunu xüsusi vurğuladı. Prezident İlham Əliyev mərhum Prezident Corc Buşun ulu öndər Heydər Əliyevlə yaxın münasibətlərini, vaxtilə onun Heydər Əliyevi öz evində qəbul etməsini xatırladı, bunun çox vacib və unudulmaz bir görüş olduğunu dedi. Ulu Öndərin ona göstərilmiş hörmətdən, səmimi görüşdən çox təsirləndiyini bildirdi. Dövlətimizin başçısı 2004-cü ildə keçirilən Afina Yay Olimpiya Oyunlarının açılış mərasimi ilə əlaqədar təşkil olunan qəbulda mərhum Corc Buşla görüşdüyünü və onunla söhbət etdiyini yada saldı.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Vilyam Gill Prezident İlham Əliyevin səfirliyə gəlməsindən böyük şərəf duyduğunu bildirdi. O qeyd etdi ki, Corc Buş Azərbaycanın müstəqilliyini tanıyan və ölkəmizlə diplomatik münasibətlər quran Amerika Birləşmiş Ştatları Prezidenti kimi ölkələrimiz arasında güclü münasibətlərin təməlini qoyub.

# "Azərbaycanla Avstriya arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Avstriyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerlin etimadnaməsini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Bernd Aleksandr Bayerl etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Avstriya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini bildirdi. Münasibətlərin inkişafında qarşılıqlı səfərlərin önəminə toxunan Prezident İlham Əliyev özünün Avstriya Respublikasına, Avstriyanın Federal Prezidenti Haynts Fişerin isə Azərbaycana səfərlərini məmnunluqla xatırladı. Siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı iqtisadi sahədə, o cümlədən ticarət, investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanda uğurla fəaliyyət göstərən Avstriya şirkətlərinin sayının artdığını vurğuladı. Dövlətimizin başçısı Bernd Aleksandr Bayerlin diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerl Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurtsun salamlarını və Avstriya hökumətinin ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Bakıda diplomatik fəaliyyətə başlamasından məmnunluq hissi keçirdiyini qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi və birinci xanım Mehriban Əliyevanın fəal iştirakı ilə Bakıda yüksək zövqlə həyata keçirilən abadlıq və quruculuq işlərinin ona dərin təəssürat bağışladığını bildirdi. Bernd Aleksandr Bayerl səfir fəaliyyəti dövründə əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.



Dövlətimizin başçısı Avstriyanın Federal Kansleri Sebastian Kurtsun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Avstriyanın Federal Kanslerinə və Avstriya hökumətinə çatdırmağı xahiş etdi.

# “Azərbaycan Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verir”

*Prezident İlham Əliyev Əfqanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenayın etimadnaməsini qəbul edib. Xeyrullah Spelenay etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.***



Dövlətimizin başçısı Azərbaycanla Əfqanıstan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani ilə dəfələrlə görüşdüyünü məmnunluqla xatırladı. Prezident İlham Əliyev iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini bildirdi, ölkələrimizin iqtisadi, humanitar və digər sahələrdə də əməkdaşlıq etdiyini vurğulayaraq, Azərbaycanın Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verdiyini və Əfqanıstanda xidmət edən Azərbaycan hərbi qulluqçularının sayının artırıldığını qeyd etdi. Əfqanıstanda sülhün və təhlükəsizliyin bütün region üçün vacib olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın “ASAN xidmət” təcrübəsinin bu ölkədə uğurla tətbiq olunmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizdə yaradılmış müasir nəqliyyat infrastrukturu imkanlarına toxunaraq, Əfqanıstanın da Şərq-Qərb marşrutu üzrə Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə birləşdirən dəmir yolu layihələrindən faydalana biləcəyini bildirdi.

Səfir Xeyrullah Spelenay Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunu olduğunu qeyd edən səfir Azərbaycanla Əfqanıstan arasında ənənəvi dostluğun daha da inkişaf etdirilməsi üçün səylə çalışacağını diqqətə çatdırdı. Səfir Azərbaycanın Əfqanıstanda sülhə və təhlükəsizliyə verdiyi töhfəsinə və ikitərəfli əsasda ölkəsinə müxtəlif sahələrdə göstərdiyi dəstəyinə görə minnətdarlığını bildirdi. O, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın uğurlu inkişaf yolu keçdiyini qeyd edərək, ölkəmizin inkişaf təcrübəsinin Əfqanıstan üçün xüsusilə vacib olduğunu dedi. Xeyrullah Spelenay Əfqanıstanın Şərq-Qərb marşrutu üzrə Azərbaycanın nəqliyyat imkanlarından istifadə edərək, yükdaşımaların həyata keçirilməsində ölkəsinin maraqlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı Prezident Məhəmməd Əşrəf Qaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

# Koreya Azərbaycanla tərəfdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyev Koreya Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, Kim Tonq Op etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.



Dövlətimizin başçısı ölkələrimiz arasında çox yaxşı əlaqələrin mövcud olduğunu və birgə səylərlə iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsinin və ticarət dövriyyəsinin artırılmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev Koreya Respublikasına dövlət səfərini məmnunluqla xatırladı və bu səfərin ikitərəfli münasibətlərimizin genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda bir sıra Koreya şirkətlərinin sənaye, nəqliyyatın idarəedilməsi, şəhərsalma, arxitektura və digər sahələrdə uğurlu fəaliyyət göstərdiklərini bildirərək, kənd təsərrüfatı, ekologiya, təhsil, peşə ixtisasartırma kimi sahələrdə də əməkdaşlıq üçün əlverişli imkanların olduğunu dedi. Prezident İlham Əliyev Şərq-Qərb marşrutu üzrə yükdaşımalar istiqamətində Azərbaycanın müasir nəqliyyat infrastrukturu və tranzit potensialını nəzərə alaraq, Koreya tərəfinin də bu imkanlardan istifadə edə biləcəyini qeyd etdi. Koreya Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Op Koreya Respublikasının Prezidenti Mun Ce-inin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfir təyin olunmasından məmnunluğunu ifadə etdi. Səfir ölkələrimiz arasında dostluq əlaqələrinin və iqtisadi-ticarət sahəsində əməkdaşlığın daha da artırılması üçün səylərini əsirgəməyəcəyini bildirdi. Dövlətimizin başçısı Prezident Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

# Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması ilə bağlı monitorinqin nəticələri açıqlanıb

***Dekabrın 5-də keçirilən konfransda "Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması" layihəsi çərçivəsində Milli Televiziya və Radio Şurası (MTRŞ) və Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının mütəxəssisləri tərəfindən teleradio yayımçılarının ədəbi dil normalarına riayət edilməsi ilə bağlı 2018-ci ilin avqust və sentyabr aylarında aparılmış monitorinqin nəticələri açıqlanıb.***







AZƏRTAC xəbər verir ki, Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli hazırda Azərbaycan dilinin inkişafı üçün hərtərəfli imkan yaradıldığını qeyd edib. Bildirib ki, vaxtilə ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi qəbul olunması dilimizə olan diqqətin və qayğının göstəricisidir. Prezident İlham Əliyev də Azərbaycan dilinin saflığına böyük önəm verir. "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman buna bariz nümunədir.

Nuşirəvan Məhərrəmli qeyd edib ki, Milli Televiziya və Radio Şurası teleradio məkanında dövlət dilimizin saflığının qorunmasına xüsusi diqqət yetirir. Vaxtaşırı təşkil olunan bu cür monitorinqlər ümumi işimizə böyük fayda verir. Teleradiolarda ədəbi dillə bağlı vəziyyətin heç də ürəkaçan olmadığını, jarqonların və dilimizə yad sözlərin işləndiyini deyən MTRŞ sədri son vaxtlar mövcud nöqsanların aradan qaldırılması üçün müəyyən iş aparıldığını diqqətə çatdırıb. O deyib ki, televiziya rəhbərləri əməkdaşları işə götürərkən onların Azərbaycan dili üzrə biliklərini yoxlamalı, aparıcılar tərəfindən dil normaları qorunmalıdır. Dil nöqsanlarına reklamlarda və tibbi proqramlarda daha çox rast gəlinir. Teleradionun cəmiyyətə böyük təsiri nəzərə alınmalı, onların dili hamıya nümunə olmalıdır.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb ki, ana dili xalqın özünüqoruma instinktini gücləndirən, onu səfərbər edən və birləşdirən, həmçinin bir toplumu digərlərindən fərqləndirən ən etibarlı vasitədir. Odur ki, hər bir dövlət öz dilinin saflığının qorunması, inkişafı və zənginləşməsinə xüsusi qayğı göstərməlidir.

"Ana dilimiz azərbaycançılıq ideologiyasının da mühüm elementi, onun dual funksiya daşıyan siyasi və sosial-mədəni dayağıdır. Azərbaycan dili həm müstəqil dövlət kimi getdikcə güclənən ölkəmizdə, həm də dünyada yaşayan çoxmilyonlu soydaşlarımızın ünsiyyət vasitəsidir. Bu dil nə qədər saf və zəngin olarsa, mənəvi varlığımızı dolğun ifadə edərsə, milli birlik də bir o qədər möhkəm və sarsılmaz olar", - deyən Prezidentin köməkçisi qeyd edib ki, dövlət dili rəngarəng etnik və konfessional tərkibə malik müstəqil Azərbaycanın bütün vətəndaşlarının ürəkdən qəbul etdiyi və birləşdirici rol oynayan nadir mədəni-sosial fenomendir. Dövlət dili respublikamızda bərqərar olmuş milli həmrəyliklə cəmiyyətimiz üçün xarakterik olan multikulturalizmin vəhdətini təmin etməyə, azərbaycançılıq məfkurəsinin əsas məqsədlərindən birinə çatmağa imkan verir. Məhz bu amillər bizdən dövlət dilinin istifadəsinə və inkişafına daim həssaslıqla yanaşmağı tələb edir.

Azərbaycan dilinin keçdiyi inkişaf tarixindən danışan Əli Həsənov deyib ki, orta əsrlərdən başlayaraq Azərbaycan dili bizim yaşadığımız coğrafiyada və Avrasiyanın böyük bir geosiyasi məkanında yüksək hüquqi-siyasi status qazanaraq, mərkəzləşmiş Səfəvilər dövlətinin rəsmi dili olub. Sonrakı dövrdə də Azərbaycan dövlətçiliyinin ayrı-ayrı formaları çərçivəsində bu dil öz hüquqi-siyasi statusunu həmişə qoruyub saxlayıb.

Prezidentin köməkçisi ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin xalqımızın ictimai-siyasi və mənəvi həyatında rolunu yüksəltmək istiqamətində gördüyü mühüm işləri xatırladaraq qeyd edib ki, məhz bunun nəticəsində ana dilimiz dövlət dili statusu qazanıb, onun mövqeləri əhəmiyyətli dərəcədə möhkəmlənib. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini hazırda Prezident İlham Əliyev ardıcıl surətdə davam etdirir.

Əli Həsənov bildirib ki, dövlət dilinin tətbiqi dairəsinin genişləndirilməsini və saflığının qorunmasını Prezident İlham Əliyev Azərbaycan dövləti qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edir. Təəssüf ki, kütləvi informasiya vasitələrində, o cümlədən elektron KİV-də dövlət dilinin norma və prinsiplərinə uyğun olmayan söz və ifadələr işlədilir. Bu amilləri nəzərə alaraq, Prezident İlham Əliyev 2012-ci ilin mayında "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında Sərəncam imzalayıb. Sərəncamda dilimizin müxtəlif səviyyələrdə, xüsusilə KİV-lərdə işlənməsində fonetik, sintaktik və semantik normalardan ciddi yayınmaların olduğu vurğulanıb, Azərbaycan dilinin internet sahəsində tətbiqinə diqqətin artırılmasının vacibliyi xüsusi qeyd edilib.

"Təəssüf ki, 2012-ci ildə imzalanmış Prezident Sərəncamında sadalanan nöqsanlara bu gün də təsadüf edilir. Buna görə də Prezident İlham Əliyev dövlət dilinin istifadəsi dairəsinin genişləndirilməsi və saflığının qorunması sahəsində mövcud problemlərin mütəmadi olaraq öyrənilməsi, monitorinqinin aparılması və nöqsanların aradan qaldırılması məqsədilə 2018-ci il noyabrın 1-də yeni Fərman imzalayıb. Həmin Fərmandan irəli gələn vəzifələrə uyğun olaraq müəyyən monitorinq aparılıb və düşünürəm ki, mütəxəssislərin iştirakı ilə monitorinqin nəticələri peşəkarcasına təhlil edilərək lazımi nəticələr çıxarılacaq", - deyə Prezidentin köməkçisi vurğulayıb.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, Azərbaycan dili bizim mənəvi sərvətimizdir, dövlət atributlarımızdan biridir. Azərbaycan dili qədim və zəngin dildir. O, həmçinin əlavə edib ki, Mətbuat Şurası yarandığı gündən dilimizin qorunması məsələsinə xüsusi diqqət yetirir, mətbuatın dili ilə bağlı mütəmadi monitorinq keçirir. Təəssüf ki, mətbuatda da dil ilə bağlı çoxlu nöqsanlar var. Daha çox qrammatik pozuntular qeydə alınır. Qüsurlardan biri də əcnəbi sözlərdən yerliyersiz istifadədir. Bu nöqsanlar jurnalistin qeyri-peşəkarlığından və dili yaxşı bilməməsindən irəli gəlir.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu qeyd edib ki, Azərbaycan dili dünyanın ən zəngin, səlis dillərindən biridir. Hər kəs dilə məsuliyyətlə yanaşmalıdır. Dili insana uşaqlıqdan sevdirmək lazımdır. Belə olan halda Azərbaycan ədəbi dilinin pozulması hallarına rast gəlmərik.

Akademik M.Nağısoylu bildirib ki, son zamanlar cəmiyyətdə rus dilindəki "uje" sözündən istifadə halları artıb. Şadlıq evlərinin adlarının yanına ingilis dilindəki "palace" sözünün yazılması nə məqsəd daşıyır? Bu, bizim dilimizdə "saray" deməkdir, bəs onda niyə saray deyil, "palace" yazırlar? Bizim dilimiz zəngindir, istənilən fikri ifadə etmək üçün kifayət qədər söz ehtiyatımız var.

Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli deyib ki, teleradio məkanında Azərbaycan ədəbi dilinin normaları xeyli pozulur. Bu gün radiolara qulaq asmaq olmur. Elə jarqonlardan istifadə edirlər ki, bunların efirdə işlədilməsi düzgün deyil. KİVDF mediada ədəbi dil ilə bağlı monitorinqlər aparılmasını dəstəkləyir və növbəti illərdə də bu layihələr davam edəcək.

Sonra monitorinq qrupunun mütəxəssisləri hesabatın nəticələri ilə bağlı açıqlama veriblər. Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müəllimi Mehriban Əlizadə, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Baba Məhərrəmli, filologiya üzrə fəlsəfə doktorları Təranə Şükürlü, Aynel Məşədiyeva və başqaları qeyd ediblər ki, Azərbaycan dili lüğət ehtiyatı, qrammatik struktur, ifadə planının zənginliyi baxımından mükəmməl olsa da, onun tətbiqi və təkmilləşdirilməsi ilə bağlı bəzi nöqsanlar var. Bu gün televiziyalarda aparıcıların nitqində özünü göstərən bir sıra nöqsanlar, ədəbi dil normalarının pozulması faktları dili qorumaq kimi nəcib missiyanın həyata keçirilməsi işinə ciddi xələl gətirir. Daha sonra teleradio məkanında ədəbi dilin qorunması ilə bağlı aparılmış monitorinqin nəticələri açıqlanıb.

Qeyd edilib ki, monitorinqə 6 adda televiziya, 12 adda radio verilişləri cəlb olunub. Həmin verilişlər mövzu istiqamətinə görə təhlil edilib. Məlum olub ki, ədəbi dil normaları dilin bütün səviyyələri üzrə - istər fonetik, istər leksik, istər qrammatik, istərsə də üslubu səviyyədə pozulur. Monitorinq nəticəsində qeydə alınan 4633 faktdan 2765-i fonetik, 511-i leksik, 684-ü üslubu səviyyədə norma pozuntusunun göstəricisidir. Televiziya verilişlərinin monitorinqi zamanı 3120 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 1695-i fonetik, 370-i leksik, 492-si qrammatik, 563-ü üslubu səviyyəyə aiddir. Radioların dilinin monitorinqi zamanı 1017 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 692-si fonetik, 102-si leksik, 144-ü qrammatik, 79-u üslubu səviyyəyə aiddir. Televiziya reklamlarının monitorinqi zamanı 108 norma pozuntusu faktı müəyyənləşdirilib ki, bunlardan 68-i fonetik, 21-i leksik, 15-i qrammatik, 4-ü üslubu səviyyədədir.

Dublyaj filmlərinin və verilişlərinin monitorinqi zamanı 388 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 310-u fonetik, 18-i leksik, 33-ü qrammatik, 27-si üslubu səviyyəyə aiddir. Konfransda monitorinqin davam etdiriləcəyi diqqətə çatdırılıb.

# Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı olub





***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il noyabrın 29-da Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən Şahbuz rayonunun Ağbulaq kəndində kənd turizm-istirahət bölgəsinin yaradılması istiqamətində tədbirlər görülür.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, dekabrın 5-də Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təqdimatı münasibətilə tədbir iştirakçılarını və sakinləri təbrik edərək deyib: Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılmasında məqsəd muxtar respublikada kənd turizminin bir bölgənin timsalında inkişafına nail olmaq və gələcəkdə digər kəndlərdə də tətbiq etməkdən ibarətdir. Bu gün dünyanın bir çox ölkələrində təmiz ekoloji şəraiti olan, flora və fauna ehtiyatının qorunduğu yerlərdə turizm bölgələri yaradılır. Muxtar respublikada da turizm bölgələrinin yaradılması üçün yerlər mövcuddur. Həmin yerlər içərisində ən əlverişlisi isə Ağbulaq kəndidir. Ona görə də Ağbulaqda turizm bölgəsinin yaradılması sahəsində tədbirlər görülmüş, kənd abadlaşdırılmış, müasir infrastruktur yaradılmış və kənddəki 65 ev yenidən qurularaq müasir şəraitlə təmin edilmişdir. Artıq Ağbulaq kəndi turizm istirahət bölgəsi kimi fəaliyyət göstərməyə hazırdır.

Ali Məclisin Sədri deyib: Ağbulaq kəndində ilin bütün fəsillərində turizmi inkişaf etdirmək mümkündür. Təbiəti, havası və müasir infrastrukturu kənddə istər yaz, yay və payız, istərsə də qış turizminin inkişafı üçün geniş imkanlar açır. Qış turizminin inkişafı sahəsindəki imkanları nəzərə alınaraq kənddə dağ-xizək mərkəzinin qurulmasına başlanılmışdır. Turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər Ağbulaq kəndini təkcə muxtar respublikada deyil, ölkəmizdə və dünyada tanıdacaqdır. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi internet vasitəsilə turistlərə təqdim olunacaqdır. Turistlərin Ağbulaq kəndinə gəlməsi isə turizmin canlanmasına və ölkəmizin inkişafına töhfə verəcəkdir.

Ali Məclisin Sədri deyib: Dünyanın bir çox ölkələrində turizmin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Azərbaycanda da turizmin inkişafı sahəsində tədbirlər görülür. Bu sahə ilə bağlı dövlət proqramı qəbul olunub və müvafiq qurum yaradılıb. Bu gün Azərbaycan dünyada həm də turizm ölkəsi kimi tanınır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası da turizm üçün çox əlverişlidir. Ona görə də muxtar respublikada mövcud imkanlardan səmərəli istifadə olunur, turizm bölgələri yaradılır və kəndlər abadlaşdırılır. Ağbulaq kəndində həm ekoloji və dağ, həm də kənd turizminin inkişafı üçün geniş imkanlar vardır. Vaxtilə kənddə Ağbulaq İstirahət Mərkəzi tikilərək istifadəyə verilmişdir. Bu il də kənddə turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər davam etdirilmiş, 1 milyon 500 min manat dəyərində yenidənqurma işləri aparılmış və kəndin siması tamamilə dəyişilmişdir.

Ali Məclisin Sədri aidiyyəti təşkilatlara tapşırıqlar verərək deyib: Şahbuz Rayon İcra Hakimiyyəti Ağbulaq kəndində ailə təsərrüfatlarının inkişafını və ekoloji təmiz ərzaq məhsullarının yetişdirilməsini təmin etməli, bununla bağlı əhali arasında maarifləndirmə işləri aparılmalı, ailə təsərrüfatlarına dövlət dəstəyi göstərilməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilin bütün fəsillərində 1500 hektar əraziyə malik olan Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin təbiətinin, flora və faunasının qorunması sahəsində tədbirlər görməli, yaşıllaşdırma işləri aparmalı və bu zaman yerli sortlardan istifadəyə üstünlük verməlidir. Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi turizm istirahət bölgəsinin torpaq ehtiyatlarını qorumalı və səmərəli istifadəsini təmin etməli, qanunsuz tikintilərin qarşısı alınmalı, bütün tikintilər layihə əsasında aparılmalı və pasportlaşdırılmalıdır. Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin turist marşrutuna daxil edilməsi və internet üzərindən tanıdılması sahəsində tədbirlər görməlidir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti aid təşkilatlarla birlikdə qarşıya qoyulan vəzifələrin icrasını vaxtında başa çatdırmalıdır.

Ali Məclisin Sədri deyib: Ağbulaq kəndi telefonlaşdırılıb, sürətli internetlə təmin edilib, təbii qaz və elektrik enerjisinin daimi verilişi təmin olunub və xidmət sahələri yaradılıb. Mövcud imkanlar və əhalinin maarifləndirilməsi kənddə turizmin inkişafına səbəb olacaqdır. Aid təşkilatlar əhalini maarifləndirməli, turizm bölgəsinin mahiyyəti izah olunmalıdır. Çünki Ağbulaq kəndinin turizm istirahət bölgəsinə çevrilməsində bir məqsəd də dəniz səviyyəsindən 1800 metr yüksəklikdə yerləşən bu ərazidə sakinlərin yaşayış səviyyəsini yaxşılaşdırmaqdan, onların məşğulluğunu təmin etməkdən və məskunlaşmanı artırmaqdan ibarətdir. Turizmin inkişafı kənddə insanların həyat səviyyəsini daha da yüksəldəcəkdir. Ona görə də yaradılanlar qorunmalı, kəndin abadlaşdırılması və turizmin inkişafı sahəsində görülən işlər bundan sonra da davam etdirilməlidir.

Ali Məclisin Sədri kəndin turizm potensialından səmərəli istifadə olunacağına əminliyini bildirib, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılmasında əməyi olanlara təşəkkür edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Hicran Rüstəmov çıxış edərək deyib ki, Ağbulaq kəndində kompleks quruculuq işlərinə 2013-cü ildən başlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 2018-ci ilin aprel ayından kənddə yenidənqurma və abadlıq işlərinə başlanılıb. Evlərdə və yardımçı binalarda əsaslı təmir və yenidənqurma işləri aparılıb, kəndin elektrik təchizatı sistemi yenidən qurulub.

Ağbulaq kənd sakini Vidadi Məmmədov deyib: Bu gün muxtar respublikada quruculuq işlərinin geniş vüsət alması, kəndlərin abadlaşması Ağbulaq kənd sakinlərini də ürəkdən sevindirir. 2013-cü ildə Ağbulaq kəndində müasir tələblərə cavab verən məktəb binası, kənd və xidmət mərkəzləri tikilərək istifadəyə verilib. Bu il isə hər bir kənd sakininin evində yenidənqurma işləri aparıldı, həyətlərimiz abadlaşdı, yeni təsərrüfat binaları tikildi. Artıq kəndimiz turizm bölgəsinə çevrilib. Kəndimizdə istifadəyə verilən istirahət mərkəzi, məktəb binası, kənd və xidmət mərkəzləri, yollarımızın müasir səviyyədə yenidən qurularaq asfaltlanması, internetdən istifadə hər bir kənd sakinini qürurlandırır. Vidadi Məmmədov yaradılan şəraitə görə kənd sakinləri adından minnətdarlıq edib.Kənd ziyalısı Mirhəsən Tahirov deyib: Muxtar respublikanın bütün rayonları kimi, Şahbuz rayonu da inkişaf dövrünü yaşayır. Ağbulaq kəndində yaradılan şərait həyata keçirilən tədbirlərin bariz nümunəsidir. Ali Məclis Sədrinin Ağbulaq kəndinə hər gəlişini sakinlər minnətdarlıq və sevinclə qarşılayır, həmin günü əlamətdar tarix kimi daim xatırlayırlar. Aparılan quruculuq işləri Ağbulaq kəndinin simasını əsaslı surətdə dəyişib. Bu gün kəndimiz şəhər təəssüratı yaradan qəsəbəyə çevrilib. Sakinlər yaradılan şəraitdən səmərəli istifadə edəcək, tikilənləri, qurulanları qoruyacaq, kənddə turizmin inkişafına öz töhfələrini verəcəklər.

Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Mais Əliyev, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə, Turizm Departamentinin direktoru Əkbər Novruzov, Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev və Naxçıvan Muxtar Respublikasının baş naziri Əlövsət Baxşıyev Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması sahəsində görülən işlərlə bağlı məlumat veriblər.

Ali Məclisin Sədri Naxçıvan-Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi turist marşrutunun xəritəsinə baxıb. Bildirilib ki, turist marşrutu turistlərin Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinə rahat gedişini təmin edəcəkdir.

Kənddə görülən işlərlə tanışlıq zamanı qeyd olunub ki, "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" muxtar respublikada turizmin inkişafı üçün geniş imkanlar açır. Dövlət Proqramına uyğun olaraq Ağbulaq kəndində də kompleks işlər görülüb. Bu il kənddə 65 yaşayış evi və yardımçı bina əsaslı şəkildə yenidən qurulub, həyətlərə kilid və sal daşlar döşənib, yeni hasarlar hörülüb, metal və taxta məhəccərlər quraşdırılıb. Kənddaxili avtomobil yollarına qum-çınqıl qatı verilib, su keçidləri salınıb, yeni yollar çəkilib, elektrik təchizatı sistemi yenilənib. Yararsız olan təsərrüfat binaları sökülüb və müəyyən olunmuş ərazidə 32 yeni təsərrüfat binası tikilib.

## Ağbulaq Xizək Mərkəzinin tikintisi davam edir

Dekabrın 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ağbulaq Xizək Mərkəzində aparılan tikinti işləri ilə tanış olub.

Fransanın "MND" şirkətinin mühəndisi Xavier Goya layihə üzrə görülən işlər barədə Ali Məclisin Sədrinə məlumat verib.

Qeyd olunub ki, Ağbulaq kəndi dağ-xizək turizminin inkişafı baxımından ideal yerdir. Xizək mərkəzinin yaradılmasına 2018-ci ilin iyul ayından başlanılıb və tikinti işlərinin 80 faizi başa çatdırılıb. 1590 metr uzunluğundakı xizəksürmə zolağında və təlim meydançasında torpaq işləri görülüb. Hazırda kanat dayaqlarının, 20 min kubmetr tutumu olan süni gölün, qaraj binasının, süni qar qurğuları üçün su və hava xəttinin qazma işləri davam etdirilir.

Ərazidə texniki bina da inşa olunacaq, xizəksürmə ləvazimatlarının satışı və kirayəsi həyata keçiriləcəkdir.

Ali Məclisin Sədri tikinti işlərinin keyfiyyətlə aparılması və təhlükəsizlik qaydalarına əməl olunması barədə tapşırıqlar verib.

# Tarixi Şəxsiyyət, Əbədiyaşar Lider

## *Ulu Öndər Heydər Əliyevin siyasi dühası hər zaman və hər yerdə*

***Müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbində əbədi olaraq yaşayacaq. Dünya şöhrətli siyasi xadim kimi, O, hər zaman xalq və dövlət amilini öz həyatından üstün tutmuşdur. Tarix sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin özünəməxsus yeri vardır. İllər keçəcək, müstəqil Azərbaycanın hakimiyyət olimpinə çox siyasi xadimlər gələcək, amma Ümummilli Lider Heydər Əliyevin göstərdiyi xidmətlərin səviyyəsinə qalxmaq, Onun ucaldığı zirvəyə çatmaq kimsəyə nəsib olmayacaqdır.***





**MUXTAR NAĞIYEV,**
YAP Səbail rayon təşkilatının sədrinin birinci müavini

Türkiyənin tanınmış dövlət xadimi Bülənt Ecevit siyasət nəhəngi Ulu Öndər Heydər Əliyevin yalnız Azərbaycan xalqı deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən, böyük fəxrlə demişdir: "Qüdrətli Öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir".

Dahi Öndər Heydər Əliyev irsinin araşdırılması ilə məşğul olan bir çox müəlliflər Ulu Öndəri XX əsrin siyasət nəhəngləri, mənsub olduqları xalqlar üçün əvəzsiz xidmətlər göstərmiş Şarl de Qoll, Corc Vaşinqton, Uinston Çörçill, Konrad Adenauer və digərləri ilə bir sıraya qoyurlar. Amma bu şəxsiyyətlərin hər birinə böyük hörmət hissi ilə qeyd etməliyik ki, onlar yaşadıqları bir ictimai-siyasi formasiyanın verdiyi imkanlardan məxsus olduqları xalq üçün maksimum istifadə etməyə çalışmış və buna nail olmuşlar. Heydər Əliyev isə həm keçmiş sovet, həm də müstəqillik dönəmində Azərbaycanın inkişafı, onun dünya dövlətləri cərgəsində layiqli yerini tutması üçün titanik əmək sərf etmiş, mənsub olduğu xalqın və eyni zamanda, özünün adını əbədi olaraq tarixə yazmışdır. Heydər Əliyevin hakimiyyətdə olduğu 30 illik dövr xalqımızın illərlə həsrətini çəkdiyi dövlət müstəqilliyinin əldə edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir. Ulu Öndərin Azərbaycana rəhbərliyinin 30 ilinin az qala üçdə ikisi sovet dövrünə təsadüf etmişdir. Ulu Öndər Heydər Əliyev məhz bu illərdə, sovet imperiyasının sərt rejiminə baxmayaraq, Azərbaycanın gələcək müstəqilliyi üçün göstərdiyi misilsiz xidmətləri ilə tarixdə layiqli yerini qazanmışdır.

Ümummilli Liderimizin keçmiş Sov.İKP MK Siyasi Bürosunun üzvləri arasında xüsusi yeri və adi vətəndaşlar tərəfindən qürurla qeyd edilir, SSRİ-nin gələcək rəhbəri vəzifəsinə namizədlər sırasında birinci Heydər Əliyevin adı çəkilirdi. Hətta SSRİ dağıldıqdan sonra xalq arasında belə bir fikir dolaşırdı ki, əgər müəyyən məqamlarda SSRİ-nin hakimiyyət sükanı arxasında Dahi Öndər Heydər Əliyev kimi güclü xaraktera malik insan olsaydı, bu qədər faciələr baş verməyəcəkdi. Bu, sovet imperiyası süquta uğrayandan sonra bütün postsovet məkanında daha çox səslənən ən populyar fikirlərdən biri idi. Çünki bu şəxsiyyətin nüfuzu, gücü və xalqın Ona məhəbbəti hamıya məlum idi. Amma belə olmadı və Sovet İttifaqı dağıldı. Sovet respublikalarından ən çox zərər çəkəni isə, məhz Azərbaycan oldu.

Ulu Öndər Heydər Əliyevin böyük nüfuzu M.Qorbaçova və onun erməni əlaltılarına öz çirkin planlarını həyata keçirməyə mane olurdu. Heydər Əliyev Qorbaçovun haqsız təzyiqlərinə baxmayaraq, onun yeritdiyi siyasi xətti, xüsusilə, Qafqazda apardığı milli siyasəti kəskin şəkildə tənqid edir, yetişməkdə olan Qarabağ problemi haqqında xəbərdarlıq edirdi. Heydər Əliyev siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra hadisələr sürətlə cərəyan etməyə başladı. Minlərlə azərbaycanlı əzəli torpaqlarından, yurd-yuvalarından qovuldu. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları Bakını işğal edib, yüzlərlə insanı güllebaran etdi. Bu ağır faciənin acısına dözməyən Heydər Əliyev heç bir təzyiq, təqib və təhdidə məhəl qoymadan, Moskvanın mərkəzində hiddət və qəzəbini bütün dünyaya bəyan etdi. Haqqın və ədalətin bərpası üçün isə tarixə elə böyük vaxt lazım gəlmədi. Azərbaycan xalqı öz sevimli oğlunu, böyük dahi və parlaq şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və inamı dayanırdı.

### Ulu Öndərin qayıdışı müstəqil Azərbaycan dövlət quruluşu kimi tarixə düşdü

Ulu Öndərin qayıdışı yenicə müstəqillik qazanmış Azərbaycanın az qala siyasi xəritədən silinmək ərəfəsində olduğu bir dövrə təsadüf etdi. Ermənistan silahlı birləşmələri Azərbaycan ərazilərinin böyük bir hissəsini işğal etmiş, iqtisadiyyat iflasa uğramış, silahlı qruplaşmalar arasındakı çəkişmələr vətəndaş müharibəsi həddinə çatmışdı. Xalqın son ümid yeri Heydər Əliyev idi.

Dünyanın siyasi axarını, nəhəng dövlətlərin maraqlarının çarpazlaşan nöqtələrini çox gözəl bilən Heydər Əliyev dərin zəkası, siyasi uzaqgörənliyi və polad məntiqi ilə hər şeyi yerinə qoya bildi. Təcrübəli dövlət xadiminin böyük səyləri nəticəsində, ölkədə ictimai-siyasi sabitlik bərpa olundu, bədnam qonşularımız tərəfindən torpaqların işğalının qarşısı alındı, Azərbaycanın yaxın gələcəkdə dünya siyasətində geosiyasi mövqeyini müəyyən edəcək siyasi-iqtisadi konsepsiya işlənib-hazırlandı. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı siyasi fırtınaların cənginden alıb, onun strateji mövqelərini bərpa etdi. Ona sabit ölkə imici qazandırdı.

Bütün bunlarla yanaşı, Heydər Əliyev çox böyük məharətlə özünün neft strategiyasını işləyib-hazırladı. Ümummilli Liderimiz böyük uzaqgörənliklə dünyanın enerji təlabatının günbəgün artdığını görür, neft diplomatiyası dövrünün başlandığını və bu diplomatiyada ölkəsinin qazanacağı iqtisadi və siyasi dividendi yaxşı duyurdu. Dünyanın söz sahibi olan ölkələrinin nəhəng neft şirkətləri ilə intensiv danışıqlar başlandı. Ulu Öndər Heydər Əliyev bu sahəni özü qədər inandığı ən yaxın silahdaşı Prezident İlham Əliyevə tapşırdı. Bundan sonra danışıqlarda əsas üstünlük "açıq qapılar" və "balanslaşdırılmış siyasət" prinsiplərinə verildi. Bir tərəfdən təmkin və səbri, yüksək intellekti və insani keyfiyyətləri ilə mütənasib olan praqmatizmi, digər tərəfdən böyük müəllimi Heydər Əliyev kimi fenomenin qiymətli tövsiyə və məsləhətləri gənc Cənab İlham Əliyevə bu mühüm tapşırığın öhdəsindən layiqincə gəlməyə imkan verdi.

### "Əsrin müqaviləsi" ilə Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bunun çox böyük iqtisadi dəyəri ilə yanaşı, siyasi əhəmiyyəti ondan ibarət idi ki, Azərbaycan dünya iqtisadi siyasətinin maraq mərkəzinə çevrildi.

Vaxtı ilə "Neft Daşları"nın salınması Azərbaycanı Xəzərin hökmdarı etmişdisə, Heydər Əliyevin qətiyyətinin təntənəsi olan "Əsrin müqaviləsi" də müstəqil ölkəmizi dünyanın qüdrətli dövlətlərinin mühüm iqtisadi tərəfdaşına çevirdi.

Ulu Öndərin neft strategiyasının yeni bir mərhələsi Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsi oldu. Bəzi dövlətlərin qısqanclıqla yanaşdıqları və hətta reallaşacağına şübhə etdikləri BTC 2006-cı ildə işə salınanda, bp şirkətinin prezidenti Con Braun onun əhəmiyyətindən danışaraq deyirdi: "BTC-nin fəaliyyətə başlaması dünyanın enerji xəritəsini dəyişdi". Amma dünyanın enerji xəritəsini dəyişən BTC yox, onun yaradıcısı, Azərbaycanın dahi oğlu Heydər Əliyev oldu.

Ümummilli Lider müstəqil Azərbaycanın iqtisadiyyatının təkcə neft sənayesi üzərində qurulmasının da gələcəkdə arzuolunan nəticələr verməyəcəyini bilirdi. Məhz ona görə də, neft gəlirləri hesabına iqtisadiyyatın digər sahələrini inkişaf etdirməyin, infrastruktur layihələrinin reallaşdırılmasına çalışmağın vacib olduğunu qeyd edir və buna səy göstərirdi. Postsovet məkanında ilk dəfə Azərbaycanda Heydər Əliyevin göstərişi ilə torpaq islahatına başlandı. Kolxoz və sovxozların şəxsi və fermer təsərrüfatlarına çevrilməsi kənd təsərrüfatının inkişafında yeni üfüqlər açdı.

Ulu Öndərin təşəbbüskarlığı, qətiyyətli və prinsipial qərarları Azərbaycan iqtisadiyyatını tədricən dirçəltdi, ona yeni nəfəs verdi. Qısa müddətdə bazar iqtisadiyyatına keçidin qanunvericilik bazası formalaşmağa və iqtisadi həyatımızda sahibkarlıq fəaliyyəti yaranmağa başladı. Böyük dövlət xadimi Heydər Əliyev yüksək diplomatik səviyyə nümayiş etdirərək, öz şəxsi nüfuzu sayəsində Azərbaycanı beynəlxalq siyasətin diqqət mərkəzinə çəkir, tanıdır və başqalarını Ona inanmağa, hörmət etməyə, sözünü eşitməyə məcbur edirdi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə, Şərqdə ilk dəfə olaraq, Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Bu fəlsəfə Onun memarı olduğu müstəqil Azərbaycanda öz real əksini tapdı.

### Ulu Öndər ideyalarının uğurlu davamçısı

Ulu Öndər özünün başladığı nəhəng işlərin uğurlu icrasını kimin təmin edə biləcəyini də müəyyənləşdirdi. Fiziki imkanlarının tükəndiyi bir vaxtda həmişə inandığı və etibar etdiyi xalqına müraciət ünvanladı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Tarix dahi şəxsiyyətin uzaqgörənliyini yenə təsdiqlədi və əməli fəaliyyəti, xalqına və Vətəninə məhəbbəti ilə ümumxalq sevgisi qazanan Prezident İlham Əliyev artıq üçüncü dövr üçün dövlətimizin başçısı seçilərək, Ulu Öndər tərəfindən qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlir.

Məhz bu uğurlar Prezident İlham Əliyevə xalqın sonsuz rəğbət və hörmətini qazandırmışdır. Dövlətimizin başçısının rəhbərliyi altında qazanılan nailiyyətlər bu gün də davam edir və xalqımızı xoşbəxt gələcəyə doğru aparır. Bu uğurların əsasını qoymuş Ulu Öndər Heydər Əliyevin adı isə qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

# Bu qışı problemsiz keçirə biləcəyikmi?

***Artıq qış qapımızdadır. Havaların soyuq keçməsi, yağan yağış, qar müəyyən problemlərə yol aça bilir. Vətəndaşlarımızın hava şəraitindən asılı olmayaraq həm kommunal, həm nəqliyyat, həm də digər problemlərlə üzləşməməsi üçün hər il aidiyyəti qurumlar gücləndirilmiş iş rejiminə keçir, qış aylarında müvafiq tədbirlərin həyata keçirilməsi istiqamətində fəaliyyətlərini daha da genişləndirirlər.***

Qışa hazırlıqla bağlı hazırladığımız yazıların davamı olaraq bu dəfə Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Dəmir Yolları QSC, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mövsümlə əlaqədar fəaliyyət planını sizə təqdim edirik:





## "Xüsusi texnikalar saz vəziyyətə gətirilib"

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat Xidmətinin rəhbəri İsrafil Kərimov bildirib ki, mövsümə hazırlıqla əlaqədar Bakı Şəhər İcra Hakimiyyətində xüsusi Qərargah yaradılıb, tədbirlər planı təsdiq olunub.

Onun sözlərinə görə, eyni zamanda paytaxtın bütün rayonlarında, idarə və müəssisələrdə, həmçinin Şəhər İcra Hakimiyyəti tərkibində fəaliyyət göstərən departament və təşkilatlarda, həmçinin "Azəriqaz" İB, "Azərişıq" ASC, "Azərsu" ASC, Bakı Su kanalı İdarəsi, "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi", Bakı Nəqliyyat Agentliyi tərəfindən də mövsümə hazırlıqla bağlı tədbirlər planları hazırlanıb, rayonlara Şəhər İcra Hakimiyyətinin qış mövsümü ilə bağlı tövsiyələri paylanılıb: "Qış aylarında havaların kəskin soyuq, qarlı-şaxtalı keçən günlərində Qərargah üzvləri, bütün rayonların təsərrüfat xidmətləri xüsusi rejimdə çalışacaq. Hər hansı ciddi hal yaranarsa, onun dərhal aradan qaldırılması məqsədi ilə operativ tədbirlərin görüləcək. Əsas, köməkçi, məhəllədaxili yolların, səkilərin, obyektlərin qarşısının qardan vaxtında təmizlənməsi üçün bu işlərə cavabdeh təşkilatlar müəyyənləşdirilib, şəhər və rayonlardakı kommunal qurumların, digər idarə və təşkilatların sərəncamında olan xüsusi texnikalar saz vəziyyətə gətirilib, kifayət qədər inventar, qum və duz tədarükü görülüb, işçilər arasında xüsusi iş qrafiki təsdiq olunub".

## "Qarlı-buzlu küçələrə 3 min ton texniki duz və qumun səpilməsi planlaşdırılır"

İ. Kərimov söyləyib ki, bu il Bakıda qarlı-buzlu küçələrə 3 min ton texniki duz və qumun səpilməsi planlaşdırılır: "Artıq 2600 ton duz ehtiyatı toplanıb. Həmçinin 50-yə yaxın xüsusi təyinatlı avtomobillər saz vəziyyətə gətirilib. Bakı şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentinin Sanitariya və Texniki Təmizlik İdarəsinin balansında olan və xüsusən qış aylarında istifadəsi nəzərdə tutulan texnikalar artıq hazır vəziyyətə gətirilib. Qarlı yollarda avtomobillərin normal hərəkətini təmin etmək məqsədi ilə duz ehtiyatı da toplanıb. Bu il idarə tərəfindən yollara 3 min ton texniki duz və qumun səpilməsi planlaşdırılır".

## "30 marşrut üzrə yolların qardan-buzdan təmizlənməsi üçün tədbirlər planları təsdiq edilib"

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Nəcəfli söyləyib ki, Məhdud Məsuliyyətli Cəmiyyətlərin xidmət etdikləri avtomobil yollarının 2018-2019-cu illərin qış mövsümünə hazırlıq və bu mövsümdə Bakı şəhərinin yollarında enişli-yoxuşlu və sərt döngələrə malik 30 marşrut üzrə qardan-buzdan təmizlənməsi üçün tədbirlər planları təsdiq edilib, Bakı Şəhər İcra Hakimiyyəti ilə birgə fəaliyyət barədə razılıq əldə olunub: "Həmin razılığa əsasən Böyük Şor qovşağı, 20 Yanvar dairəsi, Bayraq meydanından başlayaraq bütün şəhər ətrafı yollar Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, şəhər daxili avtomobil yolları isə Bakı şəhər İcra Hakimiyyəti tərəfindən qardan-buzdan təmizlənəcək.

2018-2019-cu ilin qış mövsümündə Bakı şəhərində 257 ədəd maşın-mexanizmlərin (21 ədəd avtoqreyder, 34 ədəd avtoyükləyici, 131 ədəd yükünü özüboşaldan, 16 ədəd qum səpən, 6 ədəd qar yükləyən, 19 ədəd ekskavator, 22 ədəd yol süpürən 14 ədəd su maşını) qış mövsümündə işləməsi



üçün saz vəziyyətə gətirilib, yanacaq-sürtgü materialları ehtiyatı yaradılıb, sürüşməyə qarşı zəncirlər alınmışdır. Respublikanın avtomobil yollarına xidmət göstərilməsi üçün də 700-ə yaxın maşın-mexanizm hazır vəziyyətə gətirilib".

## "Şəhər yollarında buzla mübarizə işlərinə 1100 nəfər işçi cəlb edilməsi nəzərdə tutulub"

Şöbə rəisi qeyd edib ki, bundan başqa mövsümdə tələb olunan miqdarda qum və texniki duz ehtiyatının toplanması işləri aparılıb: "Mailliyi böyük olan sahələrə və sərt döngələrə səpilməsi üçün nəzərdə tutulan qum və duz qarışığından ibarət ehtiyatlar yığılıb. Təkcə Bakı şəhər yollarında buzla mübarizə məqsədilə 1890 ton duz ehtiyatı yaradılıb, bu işlərə ümumilikdə 1100 nəfər işçi cəlb edilməsi nəzərdə tutulub. Eyni zamanda qış mövsümündə yollarda işləyən işçilərin isti paltar, ayaqqabı və digər zəruri əşyalarla təmin edilməsi və qızınma məntəqələrinin yaradılması təşkil edilib. Mövsümlə əlaqədar olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən körpülərin requlyasiyalarının dağılmış hissələrinin bərpası və körpülər yerləşən ərazidə çayların yataqlarının təmizlənməsi, yol nişanlarının, yol avadanlıqlarının və siqnal dirəklərinin texniki vəziyyətinə baxış keçirilməsi və mövcud nöqsanların aradan qaldırılması, həmçinin avtomobil yollarının cari təmiri, çiyinlərin bərkidilməsi, suötürücü boruların giriş-çıxış hissələrinin və küvetlərin təmizlənməsi işləri aparılıb".

## "Dəmir yolunda qış mövsümünə hazırlıq işləri gücləndirilir"

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat xidmətinin rəhbəri Sevinc Qədirova deyib ki, qurumda "Təsərrüfatların qış mövsümünə hazırlığı barədə texniki tədbirlər" planına əsasən təsərrüfatlar üzrə hazırlıq işləri sürətləndirilir.

Onun sözlərinə görə, tədbirlər planına uyğun olaraq, Departamentlərin bütün təsərrüfatları üzrə baxışlar, hərəkətin təhlükəsizliyi ilə bağlı kadrlarla xüsusi dərslər keçirilir və onlar təlimatlandırılır, qış mövsümündə işçilər fərdi mühafizə vasitələri, qış geyimləri və lazımi alət və ləvazimatlarla təmin edilir, istehsalat və inzibati binaların dam örtükləri, qapı və pəncərələri təmir edilir, dalan yolları olan müəssisələrdə qışa hazırlığın təşkili, xüsusilə yolların qışda qardan təmizlənməsi, donan yüklərin boşaldılması üçün mexanizmlər hazır vəziyyətə gətirilir, qəza-bərpa briqadaları yaradılır, işıqlandırıcı qurğular yoxlanılır: "Lokomotivlərin qum vermə sisteminin qaydaya salınması, depolarda qum ehtiyatının yaradılması, qaldırıcı qurğuların, kranların təmiri, yol təsərrüfatında müvafiq texnikanın təmiri prosesi davam etdirilir, işarəvermə və rabitə təsərrüfatında, dartı yarımstansiyalarında texniki avadanlıqlar yoxlanılır. Eyni zamanda, Tədbirlər planına əsasən, Sərnişin daşımaları Departamentinin kollektivi, qış mövsümündə sərnişinlərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılmasını təmin etmək məqsədilə bütün qüvvələri səfərbər edib. Vağzallarda, inzibati binalarda, təmir sexlərində dam örtüklərinə, qapı və pəncərələrə baxış keçirilir, istilik sistemləri yoxlanılır, ehtiyac olan yerlərdə təmir işləri aparılır".

## "Elektrik qatarlarında istilik sistemləri yoxlanılıb, pəncərələr şüşələnib"

Qurum sözçüsü qeyd edib ki, sərnişin vaqonlarının təmiri prosesini həyata keçirən Bakı vaqon de-



posunun kollektivi tərəfindən beynəlxalq istiqamətdə, ölkə daxilində hərəkət edən sərnişin qatarlarında, eləcə də elektrik qatarlarında istilik sistemlərinin vəziyyəti yoxlanılıb, pəncərələr şüşələnib, daxili avadanlıqlar və ehtiyat hissələri tam istismara yararlı vəziyyətə gətirilib. Qış fəslində istifadə üçün daş kömür ehtiyatı görülüb. Bundan başqa təmir sexləri və inzibati binanın dam örtükləri yenilənib, istilik sistemi qaydasına qoyulub. Təmir sexlərində çalışan işçilər qış geyimləri ilə təmin olunublar. Görülən işlər sərnişin qatarlarında xidmət mədəniyyəti səviyyəsinin daha da yüksəldilməsinə hesablanıb. Qış mövsümündə hərəkətin ahəngdarlığının qorunması, sərnişinlərin və yüklərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılmasının təmin edilməsi üçün bütün qüvvələr səfərbər olunub".

***Nailə Məhərrəmova***

ARAŞDIRMA

## Gələn ilin dövlət büdcəsində sosial ipotekaya 162 milyon manat əlavə vəsait nəzərdə tutulur



2019-cu ilin dövlət büdcəsində sosial ipotekaya 162 milyon manat əlavə vəsait nəzərdə tutulur. AZƏRTAC xəbər verir ki, bu barədə maliyyə naziri Samir Şərifov deyib. Nazir qeyd edib ki, kənd təsərrüfatı sahəsi vergidən azaddır. Növbəti ildən də bu güzəştər daha 5 il artırılır. Eyni zamanda, fermerlərə verilən subsidiyaların məbləği 50 faiz, pestisidlərə görə verilən subsidiya isə 5 dəfə artırılıb.

# XİN: "Lazerev klubu"nda səsləndirilən fikirlər Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirmək məqsədi güdür

***Ermənistan və Rusiya KİV-ləri bu ilin 30 noyabr-1 dekabr tarixlərində Yerevanda keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun birinci iclası barədə məlumatlar yayıb. Özünü ictimai diplomatiyanın yeni formatı qismində təqdim edən bu klubun əsas təşəbbüskarlarından və təşkilatçılarından biri hazırda Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının yeddinci çağırışında MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə Komitə sədrinin birinci müavini vəzifəsini tutan Konstantin Zatulindir.***



Təşkilatçılar tərəfindən Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin nümayəndələrinin iclasa dəvət olunması, həmçinin iclas zamanı K.Zatulinin özü, eləcə də Rusiya XİN-in Veteranlar Şurasının keçmiş sədri, fövqəladə və səlahiyyətli səfir ranqı olan Vladimir Kazimirov, K.Zatulinin rəhbərlik etdiyi MDB ölkələrinin institutunun direktor müavini Vladimir Yevseyev və digər şəxslər tərəfindən səsləndirilən və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı açıq hücum xarakteri daşıyan fikirlər Azərbaycan və Rusiya arasında mövcud olan yüksək səviyyəli münasibətlərə xələl gətirmək məqsədi güdür.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında bildirilir.

Açıqlamada deyilir: "Bundan əlavə, K.Zatulinin səsləndirdikləri fikirlər MDB çərçivəsində əməkdaşlığın inkişafı maraqlarına qarşı gələrək, onun Dövlət Dumasının müvafiq komitə rəhbərinin birinci müavini statusuna uyğun gəlmir. V.Yevseyevin açıqlaması isə tamamilə cəfəngiyatdır və MDB çərçivəsində əməkdaşlığın ruhuna zərbədir. Nəhayət, "Lazerev klubu"nun ümumi tonu Rusiya Federasiyası da daxil olmaqla, ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesinin irəli aparılması səyləri ilə ziddiyyət təşkil edir. Azərbaycan Respublikası məsələ ilə bağlı narazılığını Rusiya Federasiyasındakı səfirliyi vasitəsilə Rusiya Xarici İşlər Nazirliyinin diqqətinə çatdırıb".

# YAP-ın Mərkəzi Qərargahında gənclərə "Vəhdət" sənədli filminin təqdimatı olub





Dünən Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Vəhdət" sənədli filminin nümayişi olub. Tədbir iştirakçıları filmi izlədikdən sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Amil Cavadov filmin əhəmiyyətindən söz açaraq deyib ki, islamda vəhdətə nail olmaq istiqamətində zaman-zaman müəyyən addımlar atılıb. İslamda vəhdət və ittihad kimi çağırışların olduğunu deyən şöbə müdiri söyləyib ki, bu məsələ hələ də aktuallığını saxlamaqdadır. "Azərbaycanda da, müsəlman ölkəsi olaraq, bu istiqamətdə addımlar atılıb" deyə qeyd edən A.Cavadov, həmçinin, bildirib ki, ölkəmizin dövlət-din modelində vəhdət siyasəti əhəmiyyətli yerlərdən birini tutur: "Ölkəmizdə vəhdət namazları qılınır. Qafqaz Müsəlmanları İdarəsi də vəhdət namazının daha geniş şəkildə icra edilməsi istiqamətində imamlara və məscidlərdə çalışan din xadimlərinə tövsiyələrini verir".

Natiq, həmçinin, diqqətə çatdırıb ki, "Vəhdət" filmi Azərbaycanda islama aid olan ayrı-ayrı məzhəblər və təriqətlər arasında birliyə, əməkdaşlığa çağırır. Belə ki, filmin məsləhətçiləri DQİDK-nın sədr müavinləri, mütəxəssislərdir və bu filmin geniş şəkildə yayılması Azərbaycanda dini maarifləndirmə işinə öz töhfəsini verəcək.

YAP Gənclər Birliyinin sədri Seymur Orucov isə, çıxışında bildirib ki, "Vəhdət" filmində uzun əsrlərdir islam dünyasının üzləşdiyi mürəkkəb problem göstərilir: "Filmdə Azərbaycanda vəhdətin tarixi, siyasi və mədəni əsasları göstərilir: "Azərbaycan təkcə məzhəblərin vəhdət içində yaşadığı bir ölkə deyil, eyni zamanda, dinlərin vəhdət içində yaşadığı bir ölkədir. Azərbaycanda heç vaxt məzhəblərarası, başqa dinlərin nümayəndələri arasında qarşıdurmalar olmayıb. Ölkəmizdə hər zaman multikultural mühit hökm sürüb. Azərbaycanı nümunə göstərərək, dünyaya nümayiş etdirmək olar ki, həm sünnilər, həm şiələr sülh şəraitində yaşaya bilərlər". Gənclərə dini sahədə geniş maariflənməyi və bu istiqamətdə elmi araşdırmalar aparmağı tövsiyə edən S.Orucov, son olaraq onu da bildirib ki, maariflənmə olduğu şəraitdə dini radikalizmə qarşı mübarizə daha da güclənir. Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov da çıxışında ölkəmizdə dini sahədə heç bir problemin olmadığını diqqətə çatdırıb. Onun sözlərinə görə, cəmiyyətimizin ən üstün cəhətlərindən biri Azərbaycanda müxtəlif dinlərə və məzhəblərə məxsus insanların dinc şəraitdə yaşamaları, xüsusilə, sünni və şiələrin bir yerdə vəhdət namazı qılmalarıdır. "Vəhdət namazının Ulu Öndər Heydər Əliyevin adını daşıyan Heydər məscidində icra olunması xüsusi əlamətdir" deyən M.İsmayılov Ulu Öndərin Azərbaycanda multikulturalizmin siyasi əsaslarının banisi olduğunu vurğulayıb. O, Azərbaycanda dövlət-din münasibətlərini və dinlərarası harmoniyanı ən yüksək səviyyəyə çatdıran tarixi şəxsiyyətdir: "Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir".

Tədbirdə digər çıxış edənlər də DQİDK-nın sifarişi ilə hazırlanmış "Vəhdət" sənədli filminin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, film Azərbaycandakı məzhəblərarası birliyi və qardaşlığı tərənnüm edir. Bir çox ölkələrdə məzhəblərarası gərginlik müxtəlif rəqəmlərlə göstərildiyi halda, Azərbaycanda belə gərginlik yox dərəcəsindədir.

Tədbirdə, həmçinin, gəncləri maraqlandıran suallar cavablandırılıb və diskussiyalar aparılıb.

***Rövşən RƏSULOV***

# Azərbaycan Rus İcmasının bəyanatı

Azərbaycan Rus İcmasının Respublika Şurası Rusiya Dövlət Dumasının komitə sədrinin birinci müavini Konstantin Zatulinin Yerevanda Lazarev klubunun iclasındakı çıxışında Azərbaycana qarşı səsləndirdiyi qərəzli fikirlərə cavab dekabrın 5-də bəyanat qəbul edib. AZƏRTAC-ın təqdim etdiyi bəyanatda deyilir:

"Rusiya Dövlət Dumasının komitə sədrinin birinci müavini Konstantin Zatulin Yerevanda Lazarev klubunun iclasında çıxış edərkən, həmişəki kimi, Azərbaycanı 2016-cı ildə atəşkəs rejimini pozmaqda, təcavüzkar ritorikada və siyasətdə təqsirləndirib. Biz artıq adət etmişik ki, Dövlət Dumasının MDB işləri və həmvətənlərlə əlaqələr komitəsi sədrinin müavini olan Konstantin Zatulin əslində Ermənistanın rəsmi ruporu və komitədə onun nümayəndəsidir.

Konstantin Zatulinin yaddaşı çox zəifdir və o unudur ki, əsl təcavüzkar Ermənistandır, onun silahlı dəstələri Azərbaycan Respublikasına qarşı hərbi əməliyyatlara başlayıb, Xocalını, Ağdam kimi digər şəhərləri, onların dinc əhalisini - qocalar, qadınlar və uşaqlarla birlikdə məhv ediblər. Konstantin Zatulin unudur ki, məhz təcavüzkar ermənilər 1 milyondan çox azərbaycanlını öz evlərini tərk etməyə və öz torpaqlarında qaçqın və köçkünə çevrilməyə məcbur ediblər. Erməni tərəfi Azərbaycanın işğal olunmuş torpaqlarında 738 tarixi abidəni, 83 min 500-dən çox eksponatı olan 28 muzeyi, 4 rəsm qalereyasını, 100-dən çox arxeoloji abidəni, 14 memorial kompleksi, 1891 maddi-mədəni resurs obyektini, o cümlədən 1107 mədəniyyət müəssisəsini dağıdıb. Qarət edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanıb.

Azərbaycan, onun rəhbərliyi 20 ildən çoxdur ki, Dağlıq Qarabağ ətrafında vəziyyəti dinc yolla nizamlamağa çalışır və yalnız 2016-cı ildə respublika ərazisinin fasiləsiz atəşə tutulmasına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri erməni təcavüzkarlarına layiqli cavab verərək ölkənin işğal altındakı ərazilərinin bir hissəsini azad ediblər.

Azərbaycanın rus əhalisi respublikanın ərazi bütövlüyünə dair qanuni hüququnu qorumağa, öz tarixi ərazilərinin müdafiəsinə yönəlmiş səylərini səmimi qəlbdən və hərtərəfli dəstəkləyir. Yüzlərlə rus Azərbaycanın Dağlıq Qarabağ torpaqlarını erməni təcavüzkarlardan qoruyarkən canlarından keçiblər. Onların çoxu milli qəhrəman adına layiq görülüb, orden və medallarla təltif edilib. Ermənistan Azərbaycan xalqının səbrini nə vaxta qədər sınağa çəkə bilər, Azərbaycan əhalisinə təcavüzkar ermənilər tərəfindən işğal edilmiş doğma yurdlarına qayıtmaq üçün daha nə qədər vaxt lazımdır? Konstantin Zatulin bu suallara cavab verə bilərmi? Heç şübhəsiz ki, Azərbaycanın səbri hədsiz deyil. Azərbaycan Silahlı Qüvvələri tərəfindən təcavüzkar ermənilərə növbəti cavabın təqsirkarı Ermənistan rəhbərliyi və Ermənistanın vəkili Konstantin Zatulin olacaq".

# Kvota üzrə iş yerləri ilə təminat sahəsinə elektron nəzarət sistemi qurulacaq

Müəssisələrdə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota üzrə iş yerlərinin ayrılmasına, həmin şəxslərin kvota üzrə işlə təmin edilmələrinə elektron nəzarət sistemi qurulacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, sistemin qurulması nazirlik tərəfindən məşğulluq xidmətlərinin elektron infrastrukturunun yaradılması çərçivəsində həllini tapacaq. Nazirliyin mərkəzləşdirilmiş elektron informasiya sistemində gələn ilin əvvəllərində hazır olması nəzərdə tutulan məşğulluq altsistemi Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə inteqrasiya şəraitində işləyəcək. İşəgötürənlərin elektron sistemə təqdim etdikləri məlumatlar əsasında müvafiq müəssisələrdə işçilərin və ştatların sayı, qanunvericilik əsasında işçi sayına uyğun kvotaların ayrılması vəziyyəti operativ şəkildə müəyyən olunacaq. Bu da həmin sahədə müəssisələrdə yol verilən nöqsan və çatışmazlıqları aşkar etməyə imkan verəcək.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

6 dekabr 2018-ci il

# "İç üzlərini özləri açırlar"

## *"Siyasi mühacirlər" ifşa olunduqca, Azərbaycan vətəndaşları onların nə qədər simasız olduqlarını bir daha görürlər"*

***Son vaxtlar diqqətçəkən hadisələrdən biri də Azərbaycana qarşı təhqiramiz ifadələri, şər və böhtanları ilə seçilən avropalı "siyasi mühacirlər" arasında qrant məsələsi ətrafında biri-birinə ittihamlar irəli sürülmələr və təhqirlər ünvanlamalarıdır. Söhbət etdiyimiz müsahiblərimiz avropalı "siyasi mühacir"lərin davasının gözlənilən olduğunu və bundan sonra onların arasında daha gərgin qarşıdurmaların yaşanacağını bildirdilər.***



### "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "Siyasi mühacirlər"in hamısı eyni mərkəzdən tapşırıqlar alırlar "

- Biz dəfələrlə bununla bağlı fikirlərimizi bildirmişik ki, Məhəmməd Mirzəli, Orduxan Teymurxan, Tural Sadıqlı və digərləri Azərbaycan əleyhinə işləyən müəyyən dairələr əlində alətdirlər və maşa kimi istifadə olunurlar. Bu fəaliyyətin həyata keçirilməsi üçün də bu şəxslərə qrantlar ayrılır. Yəni sözügedən "siyasi mühacir"lər müəyyən maliyyə qarşılığında ölkəmizə qarşı qarayaxma kampaniyası həyata keçirirlər. Kor-kor, gör-gördü. Yəni bu şəxslərin birdən-birə üzə çıxmaları, aqressivləşmələri, söyüş ritorikasını gündəmə gətirmələri göstərir ki, bunlar bir dairə tərəfindən idarə olunurlar. Özü də diqqət edəndə, görünürdü ki, "siyasi mühacirlər"in hamısı eyni mərkəzdən tapşırıqlar alırlar və eyni xətt üzrə sistemli fəaliyyət göstərirlər. İndi Məhəmməd Mirzəli ilə Tural Sadıqlı arasında gündəmə gələn qalmaqal bizim vaxtı ilə dediklərimizin əyani şəkildə sübutudur. Yəni artıq bunu biz demirik, bunlar özləri də etiraf edirlər və bir-birini ittiham edirlər, qrantların düzgün bölünməməsi ilə bağlı bir-birlərinə ittihamlar ünvanlayırlar və indiyə kimi cəmiyyətdə formalaşmış fikri özləri də təsdiq edirlər.



### AGAAMC-nın sədri, fəlsəfə doktoru İlqar Orucov: "Siyasi mühacirlər" üçün heç bir mənəvi dəyər yoxdur"

- Xaricdən Azərbaycana qarşı söz və söyüş terroruna keçmiş insanların fəaliyyətlərini, onsuz da biz bilirik. Yəni bunu, bütövlükdə Azərbaycan cəmiyyəti bilir və başa düşür. Azərbaycana qarşı onların iddiaları, onların həyata keçirdiyi fəaliyyət, dövlətçiliyimizə qarşı tutduqları xəyanət yolu hər bir ölkə vətəndaşına məlumdur və bütövlükdə, Azərbaycan cəmiyyəti bu cür tipləri, birmənalı olaraq, rədd edir. Amma təəssüflər olsun ki, bu cür antimilli fəaliyyət səngimir. Bu insanlar nə qədər ifşa olunsalar da, yenə də öz fəaliyyətlərini davam etdirirlər. "Siyasi mühacirlər" ifşa olunduqca, Azərbaycan vətəndaşları onların nə qədər simasız olduqlarını bir daha görürlər. Məsələ bundadır ki, "siyasi mühacirlər" üçün heç bir mənəvi dəyər yoxdur, yəni onlar bütün mənəvi dəyərlərdən məhrum olmuş, mənəvi dəyərlərini itirmiş insanlardır. Avropa ölkələrində həyat olduqca sərtdir və amansızdır. Bəs adları çəkilən şəxslər bahalı kirayə haqlarını və yaşayışlarını nəyin hesabına təmin edirlər? Heç bir yerdə işləməyən, heç bir faydalı əməklə məşğul olmayan insanın gəlirləri hardandır? Onların davasından məlum oldu ki, qrant əldə etmək üçün mübarizə aparırlar. Deməli, bunlar müəyyən qüvvələrin əlində alətdirlər. Yəni Avropanın müəyyən qurumları da bu kimi tiplərin fəaliyyətini elə-belə dəstəkləmir. Avropalı "siyasi mühacirlər" üçün heç bir dəyər yoxdur deyə, bunlar müəyyən ermənipərəst mənbələrdən, hətta erməni lobbisinin maliyyə yardımlarımdan faydalanırlar və bu maliyyə yardımlarının da kökündə o durur ki, Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salsınlar. Əlbəttə ki, haqq öz yerini tapır. Əvvəl-axır hər şey məlum olur. Biz dəfələrlə qeyd etmişik ki, bu insanlar Azərbaycana qarşı xəyanət yolu tutublar və bu xəyanətin də kökündə, məhz çirkli pulların əldə olunması durur. Məhəmməd Mirzəlinin, Tural Sadıqlının, Orduxan Teymurxanın və digər milli satqınların ifşa olunmaları da bizim dediklərimizi təsdiqləyir.

### "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "Söyüş makinası"nın fəaliyyətindən qrant iyi gəlir"

- Xaricdə formalaşan və qeyri-etik davranışlarına görə "iaşə müxaliféti" adını qazanan bu insanların ilkin fəaliyyəti onların kimliyini ortaya qoydu. Sosial şəbəkələrin mənfi "qəhrəmanlarına" çevrilən məhəmmədlər, turallar və digərləri, təbii ki, öz sözlərini demirdilər. İlk gündən bəlli idi ki, onların arxasında hansısa qüvvələr dayanır və "söyüş makinası"nın fəaliyyətindən qrant iyi gəlir. Təsadüfi deyil



ki, heç bir il keçməmiş onların əsl siması aşkara çıxdı. Məsələnin ən maraqlı tərəfi də o oldu ki, özləri öz paxırlarını aləmə car çəkdilər. Oyunun iştirakçılarından biri sosial şəbəkədə etiraf etdi ki, onların fəaliyyəti üçün külli miqdarda qrant ayrılıbmış... İndi bu adamlar hakimiyyətdən daha çox, öz silahdaşlarını təhqir edir və bir-birilərinə qarşı ən ağır ifadələr işlədirlər. Əvvəllər də müxalifət daxilində qrant davaları tez-tez baş verirdi və bu proses bitməyəcək, gələcəkdə də belə halların şahidi olacağıq. Sadəcə, əsas məsələ odur ki, cəmiyyətin ayrı-ayrı üzvləri bunlara inanmasınlar, belə saxta "demokratların" arxasınca getməsinlər, xaricdə qurulan oyunların mahiyyətini başa düşsünlər.

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Ayrılan pulu bölə bilmədiklərinə görə, aralarında qarşıdurma yaranıb"

- Sosial şəbəkələrdə söyüşlə, təhqirlə, təxribatla, şantajla, şərlə ortaya çıxan bu insanlar əvvəldən özlərinin məkrli sifətlərini gizlətməyə çalışırdılar. Yəni adları çəkilən şəxslərin hansısa anti-Azərbaycan qüvvələrdən maliyyələşdiklərini hər dəfə biz vurğulayırdıq. Lakin bu şəxslərin hər dəfə də heç yerdən pul almadıqlarını, sadəcə, guya ki, "mübarizə" apardıqlarını ortaya qoyaraq, ictimaiyyəti çaşdırmağa çalışırdılar. Məhəmməd Mirzəli ilə Tural Sadıqlı arasında olan qalmaqaldan başqa da, biz Leyla Yunus, Emil Hüseynli və digərləri ilə də aralarında



da bu cür maliyyə və qrantların bölüşdürülməsi ilə bağlı problemlərin və qarşılıqlı ittihamların şahidi olmuşuq. Məhz adları çəkilən bu iki şəxs bir daha bizim dediklərimizi təsdiq edərək, özləri-özlərini fakt qarşısında qoydular ki, bəli, bunlar, doğurdan da, həmin mərkəzlərdən maliyyələşərək qrantlar almış və onların da sifarişinə uyğun olaraq, Azərbaycana qarşı bu çirkin kampaniyalarda iştirak etmişdilər. Görünür, ayrılan pulu bölə bilmədiklərinə görə, aralarında qarşıdurma yaranıb. Artıq onlar bir növ bunu ictimailəşdirərək, həm də öz cildlərini ortaya qoydular, həm də bir növ nəyə qadir olduqlarını bir daha insanlara göstərdilər. Aydın məsələ idi ki, onlar Azərbaycanda olarkən, xarici qurumlardan maliyyə yardımları alırdılar. Lakin artıq fakt göz qarşısındadır. Yəni adları çəkilən şəxslər özləri bir-birlərini ittiham edirlər. Bir sözlə, iç üzlərini özləri açırlar. Bu, bir daha bunların "mübarizə" adı altında, yəni heç bir sivil qaydalara sığmayan söyüş kampaniyasının arxasında, məhz maliyyə qaynaqlarının durduğunu ortaya qoymuş oldu.

**GÜLYANƏ**

# Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sahibkarlara dəstək proqramı hazırlayıb

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi "Iteca Caspian" və "Caspian Event Organisers" şirkətlərinin təşkilatçılığı ilə keçirilən sərgilərə dəstək verəcək. AZƏRTAC xəbər verir ki, bu barədə agentliyin İdarə Heyətinin sədri Orxan Məmmədov jurnalistlərə müsahibəsində deyib. O, həmçinin bildirib ki, agentlik tərəfindən sahibkarlara dəstək proqramı hazırlanıb. Proqram Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə sahibkarlara təqdim edilib. Sahibkarlar onlayn platformada müvafiq dövlət orqanları ilə bağlı şikayət, müraciət və təkliflərini agentlik vasitəsilə operativ çatdıra biləcəklər. Agentlik də öz tərəfindən bu məlumatları müvafiq dövlət orqanlarına çatdıra biləcək.



# "E-Hökumətə inteqrasiya üçün əlavə vəsait tələb olunur"

"Elektron Hökumətə daxil olacaq qurumların həm E-Hökumətə, həm də onların bir-birinə inteqrasiyasına əlavə vəsait tələb olunur. Qurumlarda əlaqəli olan xidmətlərlə bağlı təhlil aparanda, üzləşdirəndə çox ciddi, uzlaşmayan nöqtələr aşkar olunur, hamımız bunu gündəlik həyatımızda da görürük". SİA-nın xəbərinə görə, bunu Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib. Elektron Hökumət portalının bu gün tam gücü ilə işləyə bilmədiyini deyən agentlik sədri söyləyib ki, xidmətlərlə bağlı təhlillər vahid bir sistem üzərində aparılsa, hər bir qurum digər qurumdan ona zəruri olan informasiyanı elektron qaydada alıb özünün uçot-təhlil sistemində uzlaşdıra biləcək, bu da bir sıra çətinlikləri aradan qaldıracaq.



## “Paşinyan-Saakyan münaqişəsi Azərbaycan tərəfinin dediklərini sübut etmiş olur”



“Ermənistan nə qədər, xüsusən beynəlxalq platformalarda desə ki, Dağlıq Qarabağ müstəqildir və öz siyasətini özü müəyyənləşdirir, guya Ermənistan bütün bu proseslərə qarışmır və s. hamısı boş və cəfəng sözlərdir”. Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Onun sözlərinə görə, istər Azərbaycanın dövlət rəsmiləri, cənab Prezidentin özü, istərsə də Azərbaycan ictimai rəyi bu fikirləri mütəmadi olaraq beynəlxalq səviyyədə dilə gətirib: “Sadəcə olaraq bunu yaxşı eşitmək istəməyənlər çox olub və bunu qulaqardına vurublar. Biz Dağlıq Qarabağın guya özünün öz siyasətinin olduğunu qəbul etdiklərini nümayiş etdirməyə çalışıblar. İndi isə Paşinyanın separatçı rejimin rəhbəri Bako Saakyanla aralarında yaranan münaqişə əslinə qalanda Azərbaycan tərəfinin dediklərini sübut etmiş olur. Bu, onu göstərir ki, Paşinyan Ermənistanda hakimiyyətə gəlib və bu və ya digər şəkildə əmindir ki, 9 dekabrda keçiriləcək parlament seçkilərindən də qalib çıxacaq və öz hakimiyyətini möhkəmləndirəcək. O müvafiq şəkildə istəyir ki, Dağlıq Qarabağdakı qondarma rejim də onun əlinə baxan adamlardan ibarət olsun. Yəni Bako Saakyan köhnə sistemin, hakimiyyətin adamıdır. Təbii ki, aralarında hansısa münaqişə, qarşıdurma ola bilər. Ona görə də özü üçün təminat əldə etmək istəyir. Bu saat onun Qarabağdakı o oyuncaq rejimlə bağlı səsləndirdiyi fikirlər onların işinə bir növ davamlı şəkildə getməyə başlaması məhz ona hesablanıb. Yəni biz Ermənistandakı seçkidən sonra Dağlıq Qarabağdakı qondarma hakimiyyətlə bağlı da addımların atılacağını gözləyə bilərik”.

## “Ermənistanda seçkiqabağı böhran dərinləşməkdədir”



“Ermənistanda seçkiqabağı böhran dərinləşməkdədir. Seçkilərə müddət azaldıqca qarşı tərəflər arasındakı qarşıdurma daha da böyüməkdədir. Bu onu deməyə imkan verir ki, Ermənistanın siyasi mühitində siyasi sabitlikdən danışmaq mümkün olmayacaq”. Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.

Onun sözlərinə görə, Ermənistanda keçiriləcək parlament seçkilərində kimin qalib gəlməsindən asılı olmayaraq küçədə insanların narazılıqları və siyasi qarşıdurmalar davam edəcəkdir: “Çünki həm Paşinyana qədər olan hakimiyyətdə, həm də Paşinyanın hakimiyyəti dövründə Ermənistanda heç bir irəliləyişə nail olunmayıb. Düşünürəm ki, bundan sonra da bu istiqamətdə hər hansı bir uğur əldə etmək mümkün olmayacaq. Hakimiyyətdə kimin olmasından asılı olmayaraq uğur əldə etmək üçün hər hansı bir vədi icra etmək üçün iqtisadi potensialı olmalıdır və iqtisadi cəhətdən ölkənin gücü olmalıdır. Əgər bu ölkənin gücü yoxdursa, seçkilərdə boş vədlər verib hakimiyyətə gələrək hansısa uğura imza atmaq düşünürəm ki, qeyri-mümkün haldır. Xüsusilə bir məqam qeyd olunmalıdır ki, Ermənistanın iqtisadi, siyasi uğurlarının təməli ancaq Azərbaycanla qonşuluq münasibətlərinin qurulmasından gedir. Təbii ki, bunun üçün də işğala son qoyulmalıdır və işğalçı ölkənin qoşunları ərazilərimizdən çıxarılmalıdır. Beləcə azərbaycanlılarla ermənilərin qonşuluq münasibətləri yaradılmalıdır. Bunun da əsasında Ermənistanın yolları açılacaq və iqtisadi böhrandan çıxmaq üçün əsaslar yaranacaqdır”.

## Qalmaqal: Rusiyalı diplomat Slovakiyadan çıxarılıb

Bratislava ilə Moskva arasında diplomatik qalmaqal baş verib: Rusiyanın Bratislavadakı səfirliyinin əməkdaşı ölkədən çıxarılıb. AZƏRTAC “Ria Novosti”yə istinadla xəbər verir ki, “Pravda” qəzetinin yazdığına görə, Slovakiyanın Baş naziri Peter Pelleqrini persona non-qrata elan olunan rusiyalı diplomatı Bratislava və NATO əleyhinə kəşfiyyat xarakterli məlumatlar toplamaqda ittiham edib. Rusiyanın Slovakiyadakı səfirliyində məlumatı şərh etməsələr də, Rusiya Federasiya Şurasının beynəlxalq məsələlər komitəsi sədrinin müavini Vladimir Cabarov Moskvanın “dostluqla bir araya sığmayan bu addıma adekvat cavab verəcəyini” deyib.

# “Unudulmaz Lider, nəhəng partiya”

### *Sabunçu rayonunda Ulu Öndər Heydər Əliyevin anım günü və Onun yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının 26 illiyi qeyd olunub*



Dünən Sabunçu rayonunun 295 saylı məktəbində Ulu Öndər Heydər Əliyevin anım günü və Onun yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının yaranmasının 26 illiyi ilə bağlı “Unudulmaz Lider, nəhəng partiya” mövzusunda tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin məktəbin foyesində qoyulan büstü önünə gül dəstələri düzülüb.

Tədbirdə çıxış edən məktəbin direktoru, millət vəkili Dilarə Cəbrayılova dekabrın 12-də müstəqil Azərbaycan Respublikasının banisi, Ümummilli Liderimiz Heydər Əliyevin əbədiyyətə qovuşmasından 15 il ötdüyünü qeyd edərək demişdir: “Ulu Öndər Heydər Əliyevin ölməz, əbədi xatirəsini xalqımız hər an yad edir və xatırlayır. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər ərzində, həmişə xalqımızın milli maraqlarını dəqiq müəyyən etmiş, ictimai, siyasi, iqtisadi, mədəni və digər sahələrlə yanaşı, gənclərlə aparılan işi daim önə çəkmişdir”. D.Cəbrayılova Ulu Öndərin Azərbaycan gəncliyinə göstərdiyi qayğıdan və bu gün ölkə rəhbəri, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini qeyd edib.



Tədbirdə YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxış edərək tarixi şəxsiyyət olan Ulu Öndər Heydər Əliyevin bütün həyatını dövlətçiliyimiz, xalqımızın bu günü və gələcəyi naminə həsr edərək güclü, sarsılmaz, qüdrətli bir dövləti - Azərbaycanı bizə bəxş etdiyini bildirib. M.Abasquliyeva onu da vurğulayıb ki, zəngin və şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasının Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarətdir.

Tədbirdə Sabunçu rayon icra hakimiyyətinin başçısının müavini Rəna Fərəcova, tarixi şəxsiyyət olan Ulu Öndərin bütün həyatını dövlətçiliyimiz, xalqımızın bu günü və gələcəyi naminə həsr edərək güclü, sarsılmaz, qüdrətli bir dövləti - Azərbaycanı bizə bəxş etdiyini bildirib. R.Fərəcova, həmçinin, Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanılan uğurlardan danışıb.

Sonra məktəblilər Ulu Öndər Heydər Əliyevə həsr olunun şeirlər ifa ediblər.

Sonda Yeni Azərbaycan Partiyasına qəbul olunanlara partiya vəsiqələri təqdim olunub.

**R.HÜSEYNOVA**

# “Hələ uzun müdddət Ermənistanda sabitliyin olması mümkün olmayacaq”

***“Ermənistanda hakimiyyət böhranının yaşanması ehtimalı getdikcə artır. Bu gün də Ermənistanda faktiki olaraq böhran var. Amma söhbət daha uzun müddətli prosesdən gedir”. Bu fikirləri SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib. O bildirib ki, dekabrın 9-da Ermənistanda keçiriləcək parlament seçkilərində Paşinyanın rəqibləri sakit durmayacaq və hazırda onlar ciddi şəkildə fəaliyyət göstərirlər: “Paşinyanın gözdən salınması üçün bütün ölkə boyu təbliğat prosesi gedir.***



Keçirilən ayrı-ayrı aksiyalarda da Paşinyan tərəfdarlarının kifayət qədər azaldığının şahidi oluruq. Amma proseslərdən bütövlükdə köhnə hakimiyyətin, hərbi cinayətkar xuntanın üstünlük əldə edəcəyini də gözləmək doğru olmazdı”.

E.Mirzəbəyli söyləyib ki, siyasi oyunçuların parlamentdə sayı arta bilər: “Bildiyiniz kimi seçkilərə qatılan bir sıra partiyalar içərisində ən müxtəlif qütbdən idarə olunan siyasi təşkilatlar var ki, bu baxımdan ola bilsin Paşinyan parlamentdə çox az səs çoxluğu ilə üstünlüyə sahiblənsin”. Seçkilərdən sonra baş verəcək proseslərin əsasən Paşinyan tərəfdarları ilə respublikaçılar arasında gedəcəyini deyən siyasi şərhçi vurğulayıb ki, ən kritik vəziyyətlərdə parlamentin mühüm qərarlarının 2/3 səs çoxluğu ilə qəbul olunduğunu nəzərə alsaq, o zaman parlamentdəki azlığın Paşinyan üçün gələcəkdə kifayət qədər ciddi problem yarada biləcəyini düşünə bilərik: “Burada məsələyə iki aspektdən - Ermənistanın daxili prosesinə və onun xarici siyasətinə necə təsir etməsi baxımından baxmaq olar”.

E.Mirzəbəyli qeyd edib ki, əgər Ermənistanda hər hansı sabit hakimiyyət mövcud olmayacaqsa, bu nəticə etibarı ilə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda da özünü büruzə verəcək: “Dağlıq Qarabağ, Azərbaycanın işğal altında olan əraziləri ilə bağlı məsələnin gələcək Ermənistan parlamentində monipulyativ siyasi təzyiq vasitəsinə çevrilə biləcəyi ehtimalı da var. Bütün bunlar şübhəsiz ki, gözlənilən ehtimallardır “.

Siyasi şərhçi əlavə edib ki, ayın 9-da keçiriləcək seçkilərdə hətta Paşinyanın hansısa səs çoxluğu ilə üstünlük əldə etməsinə baxmayaraq, Ermənistanda hələ uzun müddət sabitliyin normal səviyyəyə qədəm qoyması mümkün olmayacaq: “Çünki proses sadəcə siyasi qüvvələrlə bağlı olan məsələ deyil, prosesin əsasında Ermənistanda sosial, iqtisadi böhran və bu ölkənin işğalçılıq siyasətinin nəticəsində blokada vəziyyətində olması, bu blokadadan çıxmaq istiqamətində Azərbaycanın bilavasitə iştirakı ilə atılan müxtəlif addımların nəticəsiz qalması, Ermənistanın söykəndiyi, arxalandığı hərbi siyasi blokda təklənməsi və öz maraqlarını qoruya bilməməsi kimi kifayət qədər ciddi faktorlar dayanır”.

# Ermənistan sosial partlayış ərəfəsindədir

## *Keçiriləcək növbədənkənar parlament seçkilərindən sonra da müsbətə doğru hər hansı bir dəyişikliyin olmayacağı gözlənilir*

***Ermənistanda sosial-iqtisadi və ictimai-siyasi müstəvidə vəziyyətin getdikcə ağırlaşması müşahidə olunur. Həm əhalinin maddi rifah halının pisləşməsi, həm də daxili və xarici siyasətdə qeydə alınan uğursuzluqlar qarşıdakı günlər ərzində hakimiyyət üçün yeni problemlərin yaranmasına gətirib çıxaracaq. Keçiriləcək növbədənkənar parlament seçkilərindən sonra da hər hansı bir müsbətə doğru dəyişikliyin olmayacağı gözlənilir.***



Bütün regional layihələrdən kənarda qalan Ermənistan hazırda sosial partlayış ərəfəsindədir. Əhalinin maddi gəlirləri aşağı düşdüyü bir vaxtda inflyasiyanın səviyyəsi artır, kommunal xidmətlərə görə insanlardan daha böyük həcmdə vəsait tələb olunur. Bu fonda Ermənistanda əhalinin sosial durumu dözülməz bir həddə çatıb. Ancaq başı seçkilərə daha çox qarışan, hakimiyyətə gəldikdən sonra xalqa verdiyi vədlərə sadiq qalmayan Nikol Paşinyanı bunların heç biri maraqlandırmır.

Xatırladaq ki, işğalçı ölkənin parlamentinə növbədənkənar seçkilər ərəfəsində təşviqat kampaniyasına start verilib. Bütün partiya və bloklar seçkiqabağı yarışa fəal qoşulub. Artıq ictimaiyyətə seçki proqramlarının təqdim olunmasına və ölkə üzrə seçicilərlə görüşlərin keçirilməsinə başlanılıb. Ermənistanda baş nazir səlahiyyətlərini müvəqqəti icra edən Nikol Paşinyanın seçkiqabağı kampaniyada aktiv iştirak üçün məzuniyyətə çıxdığını elan etməsindən sonra, ona qarşı təzyiqlər də artmağa başlayıb. Belə ki, o, daha əvvəl seçkiqabağı kampaniya üçün məzuniyyətə ehtiyac duymadığını söyləsə də, noyabrın ilk günündə qısamüddətli məzuniyyət götürüb və həmin ayın 5-nə qədər Dağlıq Qarabağda qalmışdı.

Müxalifətdə olan Respublika Partiyasının sədr müavini, parlamentin xarici əlaqələr komissiyasının sədri Armen Aşotyan keçirdiyi mətbuat konfransında Paşinyanın aşkar surətdə "Mənim addımım" blokunu ölkə maraqlarından üstün tutduğunu bildirib. Qeyd edib ki, Ermənistanda bu qədər problemin yığılıb qaldığı bir vaxtda, baş nazirin siyasi ambisiyalarına görə, iki həftəlik məzuniyyət götürməsi yolverilməzdir: "Doğrudanmı bu adam üçün ölkənin iqtisadi və sosial vəziyyəti, KTMT ilə bağlı yaranan problemlər heç bir əhəmiyyət kəsb etmir?! Paşinyan ancaq səs dalınca qaçır. Onsuz da, seçkiləri udacaq, ancaq hələ də daha çox səs yığmağı düşünür". Aşotyan onu da vurğulayıb ki, mənsub olduğu partiyanın gələn seçkilərdə on minlərlə səs toplayacağını, Paşinyanı və onun komandasını seçki gecəsi böyük sürpriz gözlədiyini blidirib.

"Qanunilik ölkəsi" Partiyasının sədri Artur Baqdasaryan isə, qeyd edib ki, Nikol Paşinyanın hakimiyyətə gəlməsindən 8 ay ötsə də, hər hansı bir yenilik qeydə alınmayıb: "Artıq 8 ay keçib. Bu müddətdə 30 il ərzində yığılıb qalan problemləri həll etmək mümkün deyil. Lakin 8 ayda Ermənistanın necə inkişaf edəcəyini göstərmək olar. Biz bu gün inkişafın dəqiq yolunu görmürük. Ona görə də, seçkilərdə iştirak edirik".

İşğalçı ölkənin başının seçkilərə qarışdığı bir ərəfədə Nikol Paşinyan Avrasiya İqtisadi İttifaqının Belarusun paytaxtı Minskdə keçirilən iclasına qatılmayıb. Yerli mətbuatın verdiyi xəbərə görə, bu barədə Paşinyanın birinci müavini Ararat Mirzoyan deyib. Bildirib ki, Paşinyan növbədənkənar parlament seçkilərinə görə, noyabrın 26-dan dekabrın 5-nə qədər məzuniyyətdə olub. Paşinyanın Minskə getməməsinin səbəbi məzuniyyət olaraq göstərilsə də, ekspertlər əsl səbəbin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında baş katiblik məsələsinə görə, Ermənistanla Belarusun arasında baş verən son qalmaqal olduğunu hesab edirlər.

Ermənistanda seçkilərdən sonra da hər hansı bir yeniliyin olmayacağını əhali özü də yaxşı başa düşür. Hər an sosial partlayışların olacağı ölkənin özündə də istisna edilmir. Son illər səfalət içində yaşayan insanların sayı bir qədər də artıb. Reallıqda işğalçı ölkənin əhalisinin yarıdan çoxunun aclıq problemi ilə üzləşməsi danılmazdır. Ermənistanda azgəlirli ailələr çörək məmulatlarını artıq kartofla əvəz ediblər. Ermənistan əhalisinin xeyli qismi ət və süd məhsullarından imtina edib. Əksər ailələrin aylıq gəlirləri 100 dolları keçmir. Bu məbləğlə yaşamağın mümkün olmadığını hakimiyyətdəkilərin özləri də açıq qeyd edirlər. Yoxsul həyat tərzinə dözə bilməyən əhali miqrasiyaya üstünlük verir. Nəticədə, kəndlər boşalır, infrastruktur dağılır. Kəndlərdə əsasən, qadınlar, uşaqlar və yaşlı insanlar yaşayır. Həmin ailələrin əməkqabiliyyətli kişiləri isə ölkə xaricində miqrant kimi çalışırlar. Ermənistanda vəziyyəti ağırlaşdıran digər bir cəhət isə, işsizlik səviyyəsinin durmadan yüksəlməsidir. Araşdırmalara görə, əmək qabiliyyəti olan əhalinin yarıya qədəri hazırda işsizdir. Qlobal böhran nəticəsində isə, dövlət və özəl sektorda kütləvi ixtisarlar aparılacağı bildirilir. Böhran nəticəsində kütləvi şəkildə işdən çıxarılma halları vəziyyəti daha da ağırlaşdıracaq. O da vurğulanır ki, tədbir görülməsə, anarxiya artacaq, Ermənistanda cinayətkarlığın baş alıb getməsi dövrü başlanacaq. Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı kifayət qədər çətin günlər gözlədiyini deməyə əsas verir.

***"Səs" Analitik Qrupu***

# "Paşinyan üçün rahat seçki keçirmək çox problemli olacaq"



"Sovet İttifaqı dağılandan sonrakı dövrdə Ermənistan özünün analoqu olmayan çətin və qeyri-müəyyən dövrünü yaşayır. Hazırda dünyada Ermənistan qədər çox istiqamətli zərbələr altında çırpınan ikinci ölkə yoxdur. Daxildən və xaricdən güclü təzyiqlər var. Meydan eyforiyasında xalqa verilən vədlər özünü doğrultmadı". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Hazırda Ermənistanda siyasi qüvvələr arasında kəskin qarşıdurmanın yaşandığını deyən baş redaktor söyləyib ki, hakimiyyətdə parçalanmalar sürətlə dərinləşir. O bildirib ki, cəmiyyətdə sabaha dəhşətli inamsızlıq yaradan böyük sosial-iqtisadi problemlər var: "Hakimiyyət ölkənin geosiyasi oriyentasiyasını heç cür müəyyənləşdirə və tarazlaşdıra bilmir. Ənənəvi tarixi müttəfiqlərlə münasibətlərdə dərin uçurumlar yaranıb. Ən əsası odur ki, Azərbaycana qarşı təcavüz siyasətinin mahiyyəti dünya boyunca ifşa edilib. Ermənistan regional təcrid vəziyyətindən qat-qat ağır olan, həm də qlobal təcrid olmanın acı nəticələrini yaşamağa başlayıb".

A.Quliyev vurğulayıb ki, belə ağır daxili, beynəlxalq şərtlər çərçivəsində Paşinyan və onun hələ formalaşmamış qrupu üçün rahat seçki keçirmək çox problemli olacaq: "Paşinyan nəyin bahasına olsa da parlamenti ələ keçirməyi hədəfləyib. Bu yolda hər cür seçki texnologiyalarına əl atmağa hazır olacaq ki, bu da seçkidən sonra onunla beynəlxalq təşkilatlar arasında uzun çəkişmələrin predmetinə çevriləcək. Nəzərə alaq ki, əsas geosiyasi oriyentirlərini seçkidən sonra ortaya qoyacaq və bu halda onun ya Rusiya, ya da ABŞ və Avropa ilə gərginliklər yaşayacağı qaçılmaz olacaq ".

Baş redaktorun fikrincə, Ermənistana ən böyük təzyiqlər Dağlıq Qarabağ problemi kontekstində ediləcək: "Azərbaycanın torpaqlarını qaytarmalısınız deyə təzyiqlər artıq indidən birmənalı şəkildə özünü göstərməkdədir. Paşinyan Azərbaycan torpaqları məsələsində yaxasını kənara çəkə bilməyəcək. Hər hansı bir yayındırıcı taktik gedişin ona faydası olmayacaq. Qarabağın qanunsuz hakimiyyətinin anti - Paşinyan əhval-ruhiyyəsini də əlavə etsək, o zaman Paşinyanın hakimiyyətə gəlişi ilə əslində onun hakimiyyətdən gediş prosesinin şahidi ola bilərik". A.Quliyev əlavə edib ki, dünyada Ermənistan üçün demokratik imic yaratmaq istiqamətində atdığı və atacağı addımların sonda özünə qarşı çevriləcəyi də qaçılmazdır: "Ancaq əlbəttə onun vahid hakimiyyət sahibi olaraq xüsusilə Qarabağ problemi ilə bağlı öz sələflərindən fərqli siyasət aparmaq şansı da nəzərdən qaçırılmamalıdır. Bu variantda onun qarşısında tam yeni siyasi və geosiyasi perspektivlər açıla bilər. Bir sözlə, onun hakimiyyətdə nə qədər qalacağı, əsasən, Azərbaycanla hansı siyasət aparacağından asılı olacaq ".

# Səfərbərlik və çağırış resursları uğurla tənzimlənir

## *Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin fəaliyyəti bu reallığa əsaslanır*

***Kimsəyə sirr deyil ki, güclü ordu dövlətin və onun xalqının təhlükəsizliyinin əsas təməl prinsiplərindəndir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin fəaliyyətində ordu quruculuğu məsələləri daim prioritetlik təşkil edir. Bu gün xalqın ordumuza və onun Ali Baş Komandanına inamı son dərəcə böyükdür. Şübhə yoxdur ki, məhz Prezident İlham Əliyevin səyi nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa ediləcək, qaçqın və məcburi köçkünlər öz ata-baba yurdlarına dönərək, yenidən doğma torpaqlarında yaşayacaqlar.***



Respublikamızda ötən müddətdə ordu quruculuğu prosesinin təkmilləşdirilməsi çağırış və səfərbərlik resurslarını tənzimləyən mexanizmin yaradılması uğurlarla icra edilməkdədir. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə ölkə Prezidentinin 13 fevral 2012-ci il tarixli Fərmanı ilə müvafiq sahədə idarəetmə strukturunun təkmilləşdirilməsi, onun müasir tələblərə uyğun qurulması məqsədilə Müdafiə Nazirliyinin tabeliyində olan hərbi komissarlıqlar ləğv edilib, onların əsasında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılıb. Ölkə başçısı, Ali Baş Komandan Cənab İlham Əliyevin müəyyən etdiyi dövlət siyasətinin tələb olunan səviyyədə icrasını təmin etmək məqsədilə yarandığı ildən hazırkı dövr ərzində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən əsaslı tədbirlər görülüb, səfərbərlik hazırlığı və çağırış işinin təşkili, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin çağırışçılarla komplektləşdirilməsi, vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı istiqamətində əhəmiyyətli nəticələr əldə edilib.

Xüsusilə, qeyd etmək lazımdır ki, Azərbaycanda korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılması və bu istiqamətdə dövlət siyasəti xidmətin qarşısında təxirəsalınmaz tədbirlərin görülməsi zərurətini ortaya qoymuşdu və bu istiqamətdə bir çox uğurlara imzalar atılıb. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu xoşagəlməz halların qarşısını almaq üçün güclü siyasi iradə var, amma korrupsiya və rüşvətxorluğa qarşı mübarizə ümumxalq işi olmalıdır.



Korrupsiyaya qarşı mübarizə ilə bağlı hüquqi təbliğatın gücləndirilməsi məqsədi ilə xidmət tərəfindən Respublika Hərbi Prokurorluğu ilə birgə yerli idarə, şöbə və bölmələrdə bir sıra tədbirlər həyata keçirilib. Elektron xidmətlərlə yanaşı, xidmətin əməkdaşlarının “ASAN xidmət” mərkəzlərində fəaliyyət göstərməsi də müsbət dəyişikliklərdəndir. Xidmətin Aparatında, həmçinin, struktur bölmələrində vətəndaşların müraciətlərinə baxılmasının səmərəliliyinin artırılması, ərizə və şikayətlərin araşdırılması və yaranmasına səbəb olan nöqsanların təhlili məqsədi ilə xidmətin əməkdaşlarının “ASAN xidmət” mərkəzlərinə ezam edilməsi vətəndaşlar tərəfindən müsbət qarşılanıb və çoxsaylı müraciətlərin qarşısının alınmasına səbəb olub.



Xidmət beynəlxalq əlaqələrinin qurulması baxımından da, bir sıra uğurlar əldə edib. Xidmətin beynəlxalq əməkdaşlıq qurduğu ölkələr arasında, ilk olaraq, qardaş ölkə Türkiyə Respublikasının adı çəkilməlidir. Səfərbərlik və çağırış işinin təşkilinə dair təcrübə mübadiləsinin əldə olunması məqsədi ilə Türkiyə Respublikasının nümayəndə heyəti Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, xidmətin əməkdaşları isə Türkiyə Respublikasına qarşılıqlı səfərlər ediblər. Həmçinin, ABŞ-ın Oklahoma Milli Qvardiyasının Quru Qoşunlar komandanının başçılıq etdiyi nümayəndə heyətinin xidmətin rəhbərliyi ilə görüşü təşkil edilib. Bu kimi beynəlxalq əlaqələr qarşıya yeni imkanların açılmasına münbit şəraitlər yaradır.

Xidmət tərəfindən gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işinin sistematik və məqsədyönlü aparılması daim nəzarətdə saxlanılmış, çağırışaqədərki hazırlıq işinin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə Qeyri-Hökumət Təşkilatları ilə birlikdə “Vətənin müdafiəsinə hazıram” adı altında regionlar üzrə silsilə tədbirlər, eləcə də, ümumrespublika rəsm və “Sabahın əsgəri” yazı müsabiqələri keçirilib, bu tədbirlər gənclər tərəfindən böyük maraqla qarşılanaraq, ictimaiyyətin rəğbətini qazanıb.

Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən veteranlara da daim yüksək səviyyədə qayğı göstərilir, onların sosial problemlərinin həlli istiqamətində dövlət proqramları həyata keçirilir. Milli Ordumuzun təşkil olunmasında fəallıq göstərmiş müharibə veteranları xidmət tərəfindən də daim diqqətdə saxlanılır.

Xidmət ölkəmizin aparıcı kütləvü informasiya vasitələri ilə də əməkdaşlığı xüsusi diqqətdə saxlayır. Xidmət tərəfindən hərbi vətənpərvərlik təbliğatının yüksəldilməsi və bu istiqamətdə kütləvi informasiya vasitələrinin nümayəndələrinin rolunun artırılması üçün media nümayəndələri arasında yazı müsabiqələrinin keçirilməsi də bu sıradandır. Əldə edilən hər bir uğur isə gələcəkdə xidmətin fəaliyyətinə daha güclü stimul verir.

**Ceyhun Rasimoğlu**

*Yazı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 7-ci ildönümü münasibətilə elan edilmiş yazı müsabiqəsinə təqdim olunmaq üçündür*

# “Siyasi mühacirlərin” qrant savaşı...

## Və ya “iki qoçun başı bir qazanda qaynamaz” iddiasında olanlar

*Bir neçə gündür ki, Avropada “siyasi mühacir” adı ilə yaşayan və Azərbaycan dövlətinə qarşı ardıcıl şəkildə şər-böhtan kampaniyası aparan şəbəkənin aparıcı nümayəndələri bir-birinə qarşı ifşaedici açıqlamalar verirlər. Almaniyada mühacir həyatı yaşayan Tural Sadıqlı Fransada mühacirətdə olan blogger Məhəmməd Mirzəli arasında baş verən “qrant biznesi”ndə saxtakarlıq bir çox bağlı düyünlərin açılmasına səbəb oldu. T.Sadıqlı bildirib ki, Məhəmməd Mirzəli sussaydı, vəziyyət belə olmazdı. Yəni demək istəyir ki, hələ bu harasıdır, dava bundan sonra başlayır: “Qrantı aldın, nə qrant verən təşkilatın adını açıqladın, nə də aldığın qrantın məbləğini dedin, məni efirə çıxarıb, məndən pul qazandın. Mən də sənin bu əməlinə qarşılıq olaraq, öz videolarımı youtubdan sildirdim. Mən bu işləri pulsuz görən adamam. Biz qrant gəlməsə belə, birgə nəyəsə razılaşsaydıq, təbii ki, işlər görüləcəkdi. Amma məsələnin mahiyyəti budur ki, sən məndən istifadə etdin”.*



### “Sapı özümüzdən olan baltalar” dövlətə zərər vuran tendensiyaların quluna çevriliblər

Ekspertlərin fikrincə, milli təəssübkeşliyini itirmiş “sapı özümüzdən olan baltalar”, dövlətə zərər vuran tendensiyaların quluna çevriliblər. Bu gün ayrılan qrantları təkbaşına mənimsəmək cəhdi digər “qrantyeyənlərin” ciddi qəzəbinə səbəb olub. Nəticədə, bir-birlərinin paxırlarını üzə çıxarırlar. ABŞ-da yaşayan jurnalist Sevinc Osmanqızı ilə Xədicə İsmayılın qarşılıqlı ittihamları, Natiq Adilovun Emin Millini saxtakarlıqda və qrant üçün fəaliyyət göstərməkdə ittiham etməsi də dediklərimizin əyani sübutudur. Onlar heç vaxt düzəlməyəcəklər. Çünki xəmirləri satqınçılıqla yoğrulub.

Siyasi ekspert, “Bakı xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev məsələ ilə bağlı açıqlamasında bildirib ki, xaricdə fəaliyyət göstərən anti-Azərbaycan şəbəkəsinin son günlər yenidən fəallaşmaq səyləri fonunda bəzi təzə nüanslar üzə çıxır: “Bu nüanslar həmin şəbəkənin, əslində, xarici siyasi və maliyyə qrupları tərəfindən idarə edildikləri barədə öncədən deyilənləri sübut edir. Bu anti-Azərbaycan şəbəkəsinin üzvləri dövlət əleyhinə apardıqları işin beynəlxalq sifariş olduğu barədə deyilənləri heç cür qəbul etmək istəmir, xarici qrantlarla fəaliyyət göstərdiklərini danırdılar. Əvvəllər “xor kapellası” kimi bütöv görünən bu şəbəkənin üzvləri indi bir-birilərinə elə ittihamlar yağdırmağa başlayıblar ki, şəbəkənin, həqiqətən, sifarişli qrantlar üzərində dayandığına şübhə qalmır. Bir daha məlum olur ki, özlərini Azərbaycan demokratiyası naminə fədai vətənpərvərlər kimi tanıtmaq istəyən bu “qəhrəmanlar”, əslində, qrant yeyənlər, qrant sahiblərinə ən inandırıcı hesabatlar vermək üçün hər cür şərə-böhtana əl atmağa hazır adamlar imiş”.

Politoloq Elçin Mirzəbəyli isə bildirib ki, bu insanların öz korporativ maraqlar var: “Belə olmasaydı, ideyalarına və prinsiplərinə dönük çıxmazdılar. Məsələn, zamanında dünyəvi-demokratik dövlət quruluşundan dəm vuran insanlar sonradan konstitusion dövlət quruluşunu dəyişməyə cəhd etməyə çalışan radikal ekstremistlərin müdafiəsinə qalxdılar. Bütün bu faktlar, sübuta yetirir ki, belə insanlar üçün mənəvi dəyərlər və ideoloji faktorlar yoxdur. Bu baxımdan da, virtual aləmdə və sosial şəbəkələrdə belə insanların qarşılıqlı ittihamlarla çıxış etmələrini tamamilə təbii qəbul edirəm. Bu cəbhədə deqradasiya prosesi çoxdan baş verib. İndiki halda özlərini ifşa etmələri, əslində, bu şəxslərin fəaliyyətinin, düşüncəsinin və əqidələrinin mahiyyətini ortaya qoyur”.

**R.HÜSEYNOVA**

# Bakcell “Bakutel-2018” sərgisində: innovasiyalar, əyləncə və hədiyyələr

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti Bakı şəhərində start götürmüş “Bakutel-2018” 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgi və Konfransının ziyarətçilərini ən müasir texnologiyalar, rahat və müasir məhsul və xidmətlər və şirkətin son nailiyyətləri ilə tanış edir.***




Sərginin ilk günündə media nümayəndələri üçün keçirilmiş brifinqdə “Bakcell”in baş icraçı direktoru Nikolai Beckers şirkətin “Bakutel-2018” sərgisində nümayiş olunan texnologiyalar və rəqəmsal layihələr barədə danışıb: “Bu il stendimizin qonaqları Azərbaycanda ilk dəfə olaraq “5G-yə hazırlıq” adlanan 4.5G texnologiyası üzərindən təmin olunan 600 Mbps mobil sürətini sınaqdan keçirə biləcək, şirkətin ən uğurlu layihələri və təşəbbüsləri barədə məlumat alacaqlar. 2019-cu il ərzində ölkənin ən sürətli 4G şəbəkəsinin regionlara doğru genişləndirilməsi və onun inkişafı istiqamətində aparılan işlər davam etdiriləcək. Gələn ilin sonuna qədər Bakcell Azərbaycan əhalisinin 95 faizini 4G şəbəkəsi ilə əhatə etməyi planlaşdırır”.

“Azərbaycanın Ən Sürətli Mobil Şəbəkəsi”ni sınaqdan keçir və hədiyyə qazan!

“Bakutel-2018” sərgisində quraşdırılmış Bakcell stendinin qonaqları tanınmış OOKLA şirkəti tərəfindən sınaqdan keçirilmiş və Azərbaycanın Ən Sürətli Mobil Şəbəkəsi adına layiq görülmüş Bakcell şəbəkəsinin imkanları ilə tanış olmaq fürsətinə malikdirlər. Öz gücünə güvənən iştirakçılar isə stenddə quraşdırılmış xüsusi qurğuda top ataraq yarışacaq və “Bakcell”dən pulsuz İnternet qazanacaq və 4G internetinin üstünlüklərindən yararlanacaqlar.

“Mənim Bakcellim” aplikasiyasının yeni istifadəçiləri üçün lotereya

Sərgi ziyarətçiləri Bakcell şirkətinin yeni istifadəyə verilmiş “Mənim Bakcellim” mobil tətbiqetməsi ilə tanış ola, müştəri xidmətləri ilə canlı əlaqə yaradıb sualları verə, mobil əlavəni sınaqdan keçirib onun maraqlı və unikal funksiyaları barədə məlumat ala biləcəklər. “Google Play Store” və ya “AppStore” mobil dükanlarından “Mənim Bakcellim” aplikasiyasını yükləyən qonaqlar isə xüsusi lotereyada iştirak edib hədiyyə qazanacaqlar.

“AppLab” guşəsində ən maraqlı startap layihələri

“AppLab” guşəsində həmçinin ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə tam hazır məhsul variantınadək çatdırılmasında gənc yerli developerlərə kömək edən AppLab inkubasiya mərkəzinin 2 yeni layihəsi - “Run2Help” və “bilik.az” təqdim ediləcək.

“Wi-Fi Evinizdə” - 4G olan hər yerdə internet

“Wi-Fi Evinizdə” guşəsində sərgi ziyarətçiləri rahat ev şəraitində “Bakcell”in yeni təqdim olunmuş Wi-Fi qurğusunun üstünlüklərini görəcək, ölkənin ən sürətli 4G internetindən istifadə edəcək və “Virtuall Realliq” proqramında futbol oynayacaqlar.

“Ulduzum”la oyna və hədiyyə qazan!

Bakcell şirkətinin “Bakutel 2018” stendinin ziyarətçiləri sərgidən əyləncəsiz və hədiyyəsiz ayrılmayacaqlar. Onlar “Ulduzum” loyallıq proqramına aid labirint oyununda iştirak edərək “Ulduzum” tərəfdaşlarından maraqlı hədiyyələr qazanacaqlar. Mehriban və əyləncə dolu bir mühitdə ən müasir texnologiyalardan istifadə etməklə unudulmaz təəssüratlar əldə etmək üçün Bakcell şirkəti “Bakutel 2018” sərgisinin bütün ziyarətçilərini öz stendinə dəvət edir.

Kiçik və orta biznesə dəstək

Nikolai Beckers bildirib ki, Bakcell şirkəti bu il Bakutel sərgisi çərçivəsində innovasiya və texnologilayarı nümayiş etdirməklə bərabər, kiçik və orta sahibkarlığa da dəstək göstərir. Belə ki, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə birgə təşkil olunan digər stenddə də təmsil olunan Bakcell şirkəti ölkədə kiçik və orta sahibkarlığın inkişafına dəstək məqsədilə start verilmiş “KOB Dəstək” proqramı çərçivəsində startapların və bizneslərin “Bakutel 2018” sərgisində təmsil olunmasına dəstək göstərir.

# İctimai rəy və insan hüquqları

***İctimai rəy və mənfəət qrupları dövlət hakimiyyətinin məhdudlaşdırılmasında öz təsir gücü və fəaliyyət mexanizmləri baxımından, özünəməxsus yer tutur. İctimai rəy, onun insan hüquqlarına və dövlət hakimiyyətinə, həmçinin, onlar arasındakı münasibətlərə təsiri barədə kitabın ayrıca fəslində təfsilatı məlumat verildiyini nəzərə alaraq, mənfəət qrupları barədə danışaq.***

Ə.Abbasov göstərir ki, maddi və ya mənəvi mənfəətləri təmin etmək üçün birlikdə hərəkət edən və bu istiqamətdə hakimiyyətə müxtəlif yollarla təsir etməyə çalışan qruplara mənfəət qrupları deyilir. Bu anlayışa əsasən, mənfəət qrupları iqtisadi, ticari və sosial maraqları olan sərmayəçilərin, iri şirkətlərin, həmkarlar ittifaqlarının qrupları, habelə, ümumi bir məqsəd, dəyər ətrafında birləşən mənfəət qruplarıdır. Bu qruplar lobbiçilik, kampaniyalar, partiyalara təsiretmə, parlament üzvlərinə əlaqələr yolu ilə müxtəlif formalarda siyasi hakimiyyətə təsir etmək imkanına qadirdirlər. Mənfəət qrupları ictimai rəyə təsir göstərməklə, insan hüquqlarının müdafiə olunmasına da öz töhfələrini verirlər.

Ümumiyyətlə, insan hüquqlarının təmin olunması və müdafiəsi dövlətlərin, tutduğu vəzifədən asılı olmayaraq, ayrı-ayrı şəxslərin, ictimai təşkilatların vəzifəsi olmaqla yanaşı, hər bir kəsin və bütövlükdə, millətlərin məsuliyyət dairəsinə aid olan məsələdir. Sistemli transformasiya şəraitində yaşayan ölkələrdə bu məsələnin uğurlu həlli, xüsusi olaraq, milli elitadan, bilavasitə asılıdır. Siyasi elita isə daha böyük məsuliyyət daşıyır. Burada da, şübhəsiz, hakim siyasi elitanın üzərinə böyük vəzifələr düşür. İnsan haqları, ilk növbədə, siyasi hakimiyyətin həll etməyə borcu olduğu məsələdir. Aidiyyəti beynəlxalq humanitar əməkdaşlığın mərkəzində insan hüquqları durur.

Beynəlxalq humanitar hüquq baxımından, insan hüquqları dedikdə, cəmiyyət üzvü olan fərdin hüquqları, şəxsiyyətin hüquqları nəzərdə tutulur. İnsan hüquqlarını təmin etmək üçün ayrı-ayrı cəmiyyətlər müxtəlif sosial imkanlara malikdir. Lakin prinsip etibarilə dövlətlər üçün fərdlərə hansı hüquqların verilməli olması və ölkədaxili qanunlarda təsbit edilməli olması haqqında baxışların üst-üstə düşməsi xarakterikdir. Həmin hüquqların real təmin edilməsi dərəcəsi də müxtəlif ola bilər. Bu, mövcud cəmiyyətin inkişaf səviyyəsinə əsaslanır və ona milli, dini və digər xüsusiyyətlər öz təsirini göstərir. Bununla yanaşı, onların mənə və mahiyyətinin, habelə, rolunun ümumi anlaşılması da mövcuddur.

Beynəlxalq aləmdə insanın əsas hüquq və azadlıqları haqqında, ilk növbədə, BMT-nin Nizamnaməsində danışılır. Bəzən müxtəsərlik naminə, “insanın əsas hüquq və azadlıqları” söz birləşməsi eyni bir terminlə - “insan hüquqları” termini ilə ifadə edilir. Hüquqlar da, azadlıqlar da şəxsin və ya şəxslər qrupunun mümkün davranış ölçüsünün qanunla təmin edilməsidir. Hüquqların gerçəkləşdirilməsi qaydası bu və ya digər dərəcədə tənzim olunur. Azadlıq bəzən dövlətin müdaxilə etməyə vəd etdiyi insan davranışı sferası qismində maddədə deyilir ki, BMT “irqindən, cinsindən, dinindən və dilindən asılı olmayaraq, bütün insanlar üçün əsas insan hüquqlarına və azadlıqlarına hörmət və riayət olunmasını himayə edir”. Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə 1975-ci il Müşavirəsinin (ATƏM) Yekun Aktında insan hüquqlarına hörmət edilməsi prinsipi haqqında artıq birbaşa danışılır.

İstənilən prinsipin məzmununun beynəlxalq hüquqda gerçəkləşdirilməsi üçün onun beynəlxalq hüququn müqavilə və adət normalarında konkretləşdirilməsi vacibdir. İnsan hüquqlarına hörmət edilməsi prinsipini inkişaf etdirən və konkretləşdirən beynəlxalq-hüquqi öhdəlikləri çox zaman insan hüquqları sahəsində beynəlxalq standartlar adlandırırlar. Bu, dövlətlərin öz yurisdiksiyası altında olan şəxslərə təkcə hansısa müəyyən hüquq və azadlıqların verməsi deyil, həm də belə hüquq və azadlıqlara qəsd etməməsi (məsələn, irqi, milli və digər ayrı-seçkiliyə, işgəncələrin tətbiqinə yol verməmək və s.) barədə öhdəliklərdən ibarətdir. Standartlar ümumi, yəni hamılıqla tanınan və məhəlli standartlar olmaqla, aşağıdakı iki qrupa bölünürlər:

1) Hər hansı ölkə qruplarının ənənələrindən, inkişaf səviyyəsindən irəli gələn məhəlli standartlar (bunlar daha geniş yayılmışdır);

2) Ümumavropa prosesi çərçivəsində qəbul edilən standartlar.”

Bəzi hallarda hüquq və azadlıqlar barəsində bu və ya digər məhdudiyyətlərə yol verilir. Məsələn, “Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt”ın bir sıra müddəalarında nəzərdə tutulmuşdur ki, müvafiq hüquq və azadlıqlar yalnız qanunun təyin etdiyi və dövlət təhlükəsizliyi, ictimai qayda, əhalinin




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

sənədlərdə də bu fikir xüsusi vurğulanır. Əfsuslar ki, BMT başda olmaqla, beynəlxalq təşkilatlar indinin özündə də insan haqlarını təmin etməyən dövlətlərə münasibətdə, əksər hallarda, yalnız kimlərisə “utandırmaqla” və yaxud qınaq altında saxlamaqla kifayətlənirlər. Bəzən, iqtisadi və geopolitik maraqlarından çıxış edərək, heç bunu da vacib bilmirlər. Beləliklə də, beynəlxalq miqyasda insanların siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının daha da çox pozulmasına şərait yaratmış olurlar.

Hüquq elmləri üzrə fəlsəfə doktoru Leyla İsgəndərova qeyd edir ki, insanın təbii hüquq və azadlıqları məsələsi dünyanın bütün dövlətlərinin narahatlığının predmetini təşkil edir. İnsan hüquq və azadlıqlarının universallığının və ümumiliyinin tanınması o deməkdir ki, insan hüquqları problemi dövlətlərin daxili işi deyildir.

İnsan hüquqları probleminin dünya dövlətlərinin ümumi işi olması bu sahədə beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsini və inkişaf etdirilməsini şərtləşdirmişdir. Məlum olduğu kimi, beynəlxalq əməkdaşlığın humanitar sahəsi məsələlərin geniş dairəsini əhatə edir. Bu nöqteyi-nəzərdən, dəyərləndirilir.

L.İsgəndərova yazır: “İnsan hüquqları sahəsində beynəlxalq standartlar müvafiq beynəlxalq sənədlərdə öz əksini tapmışdır. İnsan hüquqları ilə bağlı beynəlxalq standartlar sistemində ilk yeri insan hüquqlarına hörmət bəslənilməsi prinsipi tutur. Bu prinsipin məzmununu dövlətlərin öz yurisdiksiyası daxilində olan bütün şəxslərə münasibətdə irqi ayrı-seçkiliyə yol vermədən bu hüquqlara hörmət və riayət etmək öhdəliyi təşkil edir.

İnsan hüquqlarına hörmət bəslənilməsi prinsipi, beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi, 1945-ci ildə BMT Nizamnaməsinin qəbul olunması ilə təsdiq edilmişdir. Doğrudur, Nizamnamədə bu prinsip digər prinsiplər sırasında göstərilməmişdir. Lakin Nizamnamənin 1-ci maddəsində (b.3) BMT- nin məqsədlərindən biri kimi irqindən, cinsindən, dinindən və dilindən asılı olmayaraq, bütün insanlar üçün əsas insan hüquqlarına və azadlıqlarına hörmət edilməsini həvəsləndirməkdən ibarət olması göstərildiyi üçün belə hesab olunur ki, Nizamnamənin bu prinsipi dolayısı ilə təsbit edilmişdir. Nizamnamənin 55-ci maddəsi də bunu bir daha təsdiq edir. Həmin

sağlamlığı və ya əxlaqı üçün zəruri olan məhdudiyyətlərə məruz qala bilər. Sazişin 4-cü maddəsində göstərilir ki, ölkədə fövqəladə hallar zamanı millətin həyatı təhlükə qarşısında qaldıqda və bu, rəsmən elan edildikdə, Sazişin iştirakçıları müəyyən şərtləri gözləməklə Pakt üzrə öz öhdəliklərindən kənara çıxa bilərlər. Lakin 4-cü maddəyə əsasən, yalnız, irqi, cinsi, dil və ya sosial mənşəyə görə ayrı-seçkiliyi qadağan edən, habelə, yaşamaq hüququnu, işgəncələrin, köləliyin və s. yolverilməzliyini təsbit edən standartlardan kənara çıxmağa yol verilmir.

L.İsgəndərovanın fikrincə, insan hüquqları sahəsində beynəlxalq sənədlərin ümumi xakteristikası bəzi çatışmazlıqları da aşkar edir. Belə ki, “insan hüquqları” anlayışını konkretləşdirməyən BMT Nizamnaməsi, bununla belə, müəyyən dərəcədə buna imkanlar yaradan bir sıra prinsipləri özündə ehtiva edir. BMT Nizamnaməsində xalqların hüquq bərabərliyi, kişilərlə qadınların bərabər hüquqa malik olmaları, insan şəxsiyyətinin ləyaqəti və dəyərləri (yəni yaşamaq hüququ), irqi, cinsi, dil əlamətlərinə və dini əlamətlərə görə ayrı-seçkiliyə yol verilməsi haqqında danışılmır.

Müvafiq beynəlxalq müqavilələr də, ilk növbədə, yuxarıda göstərilən müddəaları nəzərə almaqla hazırlanmış və indi də hazırlanmaqdadır. Bu növ işlər, əsasən, BMT və onun ixtisaslaşdırılmış idarələri, hər şeydən əvvəl, Beynəlxalq Əmək Təşkilatı (BƏT) və YUNESKO çərçivəsində aparılır. Beynəlxalq təşkilatların qətnamələrinin bir hissəsi tövsiyə xarakteri daşıyır. Bunlara “İnsan Hüquqlarının Ümumi Bəyannaməsi” “Din və Əqidə Əsasında Dözülməzlik və Ayrı-seçkiliyin bütün Formalarının aradan qaldırılması haqqında Bəyannamə” (1981), “Milli və ya etnik, dini və dil üzrə mənsub şəxslərin Hüquqları haqqında Bəyannamə” və digər sənədlər aiddir.

İnsan hüquqları sferasına aid sənədlərin digər hissəsini məcburi xarakter daşıyan beynəlxalq müqavilələr təşkil edir. Bunlara aşağıdakı beynəlxalq müqavilələr daxildir:

**a)** “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya - (1965);

**b)** “İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Pakt”

(1966) və s.

Sadalanan müqavilələr insan hüquqları sahəsində standaları özündə ehtiva edir.

R.A.Müllerson yazır: “İnsan Hüquqları haqqında Sazişlər” BMT-nin insan hüquqlarının təmin edilməsi üzrə əməkdaşlıq sahəsində əldə etdiyi ən böyük uğurlardan biridir. Bu müqavilələrin köməyi ilə insan hüquqlarına dair məsələlər üzrə dövlətlərarası əməkdaşlıq üçün universal beynəlxalq-hüquqi baza yaratmaq nəzərdə tutulmuşdur”. Sazişlər 1976-cı ildən qüvvəyə minmişdir.

Hazırda bu sazişlərin səmərəliliyini artırmaq üçün iştirakçı-dövlətlərin dairəsini daha da genişləndirməsi məsələsi gündəlikdə durur. Qeyd etmək lazımdır ki, BMT Təhlükəsizlik Şurasının üzvlərindən biri olan ABŞ “İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Pakt”da iştirak etmir.

Şübhə yoxdur ki, insan hüquqlarını xalqların hüquqlarından ayırmaq olmaz. Xalqların hüquqlarına (kollektiv hüquqlara), eyni zamanda da, insan hüquqları qismində baxıla bilər. Bununla belə, xalqların heç də bütün hüquqlarını insan hüquqlarının üçüncü nəslinə aid etmək olmaz. Hələ 1966-cı ildə qəbul olunmuş xalq-insan hüquqları haqqında saziş xalqların öz müqəddəratını təyin etmələri hüququ ilə başlanır.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

səs

Son səhifə 6 dekabr



## Ancelina Coliyə bənzəmək üçün 51 dəfə əməliyyata girdi

Təbər qeyd edib ki, fotolarını paylaşdığı zaman üzünü gülünc vəziyyətə gətirir . Ancelina Coliyə bənzəmək üçün dəfələrlə əməliyyat olan iranlı qadın Səhər Təbər 51-ci dəfə əməliyyat olunub. Sputnik Azərbaycan xarici mətbuata istinadla xəbər verir ki, gənc qadın bu dəfə burun əməliyyatı keçirib.

## Məryəm Uzerli: "bir dəfə evlənsəm, xoşbəxt olaram"

Aktrisa Məryəm Uzerli ərə getmək istədiyini etiraf edib. 35 yaşlı aktrisa "Alem" jurnalına müsahibə verib. Jurnalın üz qabığına çəkilən kino ulduzu evlilik haqqında fikirlərini belə ifadə edib: "Həyatımda bir dəfə evlənsəm, xoşbəxt olaram. Bu günə qədər heç kimə qarşı belə bir şey hiss etməmişəm. Düşünürəm ki, nə zamansa özü ilə barışıq bir insan qarşıma çıxacaq. Əlbəttə, bunun bir zaman sərhədi yoxdur, amma o gözəl vəhdəti - ailə həyatını yaşamaq, dadmaq istəyirəm. Gələcəkdə birlikdə olacağım insan dünyanın hansısa bir yerində yaşayır. Həyatın necə gedəcəyini bilmirik".

## Banan insult riskini azaldır

Banan əsasən tropik ölkələrdə bitir, kal olarkən yığılır və daşınma zamanı yetişir. Onun vətəni Hindistan sayılır və elə oradan da dünyanın bütün tropik regionlarına yayılıb.

AZƏRTAC xarici tibbi saytlara istinadla xəbər verir ki, banan tingini Şimali Amerika qitəsinə XVI əsrdə yaşamış ispan keşişi Tomas de Berlanka aparıb. Ekzotik meyvə şəraitə uyğunlaşaraq yerli əhalinin xoşuna gəlib və onlar üçün çörək, kartof, hətta əti əvəz edən ucuz və kalorili qida rolunu oynayıb.

Giləmeyvə sayılan bananın saplağı çox uzun olur. Bir iri gövdədə ağacdan asılı olaraq 500 kiloqram və ya 300 ədəd meyvə ola bilər. Onun ağ rəngli, yumşaq və dadlı özəyi, sarı qabığı olan növü geniş yayılsa da, çəhrayı, qırmızımtıl, bənövşəyi və qara qabıqlı olanları da var. Həmin növlər zərif olduğundan daşınmağa davam gətirmir.

Bananın 300-ə yaxın növü olsa da, istehlak baxımından iki-şirin və nişastalı növlərə ayrılır. Şirin növ çiy halda yeyilir, yetərincə bərk olan nişastalı banan isə tamına görə kartofu xatırladır. Onu qızardır, pörtlədir, balıq və ət xörəklərində istifadə edirlər. Bir sıra ölkələrdə banan yarpağından boşqab kimi istifadə edilir.

Tərkibində çoxlu karbol olduğuna görə bu meyvə tez doyuzdurur. Lətində orqanizmin müdafiə funksiyalarını möhkəmləndirən, soyuqlamanın qarşısını alan xeyli miqdarda askorbin turşusu var və o, C, A, B vitaminləri və maqneziumla zəngindir. Banan maddələr mübadiləsini yaxşılaşdırır, orqanizmdəki şlak və mayeni xaric edir, qanda xolesterinin səviyyəsini aşağı salır, immuniteti bərpa edir, əsəbləri sakitləşdirir. Mədəsində yara olanlar üçün banan xüsusilə faydalıdır. Alimlərin gəldiyi qənaətə görə, banan hüceyrələri və mədənin selikli qişasının bərpasına yardım edir.

Gündə bir-iki ədəd banan yemək hipertoniklər üçün də xeyirlidir, belə ki, bu meyvə təzyiqi 10 faizə qədər endirir, insult riskini azaldır. Gündə beş ədəd banan yemək isə arterial təzyiqi endirmək üçün lazım olan dərmanların istifadəsini iki dəfə azaldır.

Banan kartofdan bir yarım dəfə qidalıdır. Qurudulmuş bananda təzəyə nisbətən beş dəfə çox kalori var. Bir ədəd bananda 300 mq kalium olur. Bu meyvə yüksək təzyiqlə mübarizə aparmağa da kömək edir. Kulinariyada ondan əsasən çiy halda istifadə edirlər. Şərab, pivə, sirkə, marmelad, cem və dondurma istehsalında da banan əvəzsiz xammal rolu oynayır.

## "Bu il Formula 1 Azərbaycan Qran-Prisini 83 milyon tamaşaçı izləyib"



Cari ildə Bakıda keçirilən Formula 1 Azərbaycan Qran-Prisi dünyanın aparıcı kütləvi informasiya vasitələri - İngiltərənin məşhur "The Times" və "The Guardian" nəşrləri tərəfindən "2018-ci ilin ən yaxşı yarışı" adlandırılıb.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) marketinq və kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai dekabrın 5-də jurnalistlərə müsahibəsində deyib. N.Arpadarai bildirib ki, televiziya auditoriyasında da Azərbaycan Qran-Prisi bir çox yarışlardan üstün olub. Azərbaycan Qran-Prisini dünyada 83 milyon insan izləyib. Formula 1 yarışlarının təşkilatçısı "Formula One Management" şirkətinin statistikasına əsasən, izləyicilərin 76 faizi Bakı yarışından zövq alıb. Bu da mövsüm ərzində ümumi göstəricidən yuxarıdır. Bakı trası bu baxımdan reytinqdə beşinci yeri tutur. Bakı şəhər halqasından irəlidə yalnız Böyük Britaniya (90 faiz), Avstriya (85 faiz), Braziliya (81 faiz) və Meksikadır (79 faiz) qərarlaşıb.

Qeyd olunub ki, "Viasat" kommunikasiya şirkətinin Skandinaviya ölkələrinin tamaşaçıları arasında apardığı ictimai sorğuya əsasən, Azərbaycan Qran-Prisi ABŞ və Çindəki yarışlardan sonra üçüncü yeri tutub. Rəqəmsal platformalarda orta göstərici 3,3 milyon unikal istifadəçi olduğu halda, Azərbaycan Qran-Prisini 4,1 milyon unikal istifadəçi izləyib. Bu isə Avstraliya Qran-Prisindən sonra mövsümün ikinci ən böyük göstəricisidir. Məşhur nəşrlər builki Azərbaycan Qran-Prisini "Red Bull Racing" komandasının hər iki pilotunun qəzası, həlledici dairədə bolidin təkərinin deşilməsi və bununla da Valtteri Bottasın qalibiyyətini itirməsi və digər həyecanlı anlarla təsvir ediblər.

## Ronaldo Madridə getməkdən imtina etdi



"Yuventus"un futbolçusu Kriştiano Ronaldo İspaniya Futbol Federasiyasının dəvətini rədd edib. Qol.az-ın "AS" nəşrinə istinadən yaydığı xəbərə görə, 33 yaşlı hücumçu Madriddəki "Santyaqo Bernabeu" stadionunda keçiriləcək Libertadores Kubokunun final oyununu - "River Pleyt" - "Boka Xuniors" matçını izləmək təklifi alıb.

Lakin yayda "Real"dan "Yuventus"a keçən Ronaldo belə tez bir zamanda İspaniyaya dönməsinin yersiz olduğunu əsas gətirərək "yox" cavabı verib. "Barselona"nın hücumçusu Lionel Messi isə oyunu canlı izləyəcək



## "Qalatasaray" braziliyalı hücumçu alır

"Qalatasaray" Moskva "Lokomotiv"inin futbolçusu Luiz Adriano transfer edir. Qol.az-ın "Milliyət"ə istinadən yaydığı xəbərə görə, İstanbul klubu ilkin razılıq əldə etdiyi 31 yaşlı hücumçu ilə qış transfer pəncərəsində müqavilə imzalayacaq. Brazilyalı futbolçu üçün "sarı-qırmızılar"ın qarşı tərəfə 4 milyon avro ödəyəcəyi və futbolçu ilə 3 il yarımlıq müqavilə imzalayacağı iddia edilir. Qeyd edək ki, L. Adriano bu mövsüm Moskva klubunun heyətində 17 oyunda 4 qol vurub, 4 qol ötürməsi verib.

## 2019-cu ildə boks üzrə dünya çempionatı Yekaterinburqda keçiriləcək

2019-cu ildə kişilər arasında boks üzrə dünya çempionatı Yekaterinburqda keçiriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı Rusiya Boks Federasiyasının mətbuat xidməti yayıb. Məlumatda deyilir ki, federasiya bu qərarı Sverdlovsk vilayətinin təklifi əsasında qəbul edib. Yarışlar "Yekaterinburq-EKSPO" Beynəlxalq Sərgi Mərkəzində keçiriləcək. Rusiya Boks Federasiyasının baş katibi Umar Kremlyov deyib: "Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Vladimiroviç Kuyvaşov regionda idmanın inkişafında şəxsən iştirak edir. Biz boksun inkişafına onun töhfəsini görürük və qiymətləndiririk. Sirr deyil ki, bizim idman növünü Yekaterinburqda çox sevirlər və dünya çempionatının yerinin dəyişdirilməsi barədə təklif hakimiyyət orqanları tərəfindən tam dəstəklənib. Bu iri turnirin keçirilməsi Sverdlovskda boksun inkişafına yeni təkan verəcək. Yeni boks məktəbləri açılacaq. Bu, regionun iqtisadi inkişafına da kömək edəcək".

## ELAN

Odlar Yurdu Universitetinin 350 MR №-li qrupun marketinq ixtisasının II kurs tələbəsi Cəfərli Cabbar İlham oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil ixtisası üzrə III kurs tələbəsi Həsənova Aytac Nəzər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**